

Milli azadlıqdan şirin nemət yoxdur!

# İlham Əliyev: Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq müsbət dinamika nümayiş etdirir

## Azərbaycan Respublikasının Prezidenti Vyetnam Sosialist Respublikasının "Vietnam News Agency" agentliyinə müsahibə verib



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
7 may 2025-ci il, çərşənbə
№ 077 (6904)
Qiyməti 60 qəpik

# Qlobal siyasətin Azərbaycan modeli...



Bax səh. 4

# Azərbaycan-Belarus: möhkəm dostluğa və qarşılıqlı etimada əsaslanan əlaqələr

Bax səh. 2



Bax səh. 2

## Ağdam Sənaye Parkı və Sarıcalı kəndində...



Bax səh. 4

## Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilən tədbir keçirilib

# Vaşinqtonla Ankara arasında telefon diplomatiyası

Bu günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Ağ Evin rəhbəri Donald Tramp arasında baş tutan telefon danışığı dünyanın əsas gündəm mövzularından birinə çevrilib. Telefon danışığında aparılan müzakirələrin spektri kifayət qədər geniş olub - liderlər həm ikitərəfli münasibətlərin perspektivləri, həm də regional və qlobal miqyasda izlənilən proseslərə bağlı ölkələrinin mövqelərini diqqətə çatdırıblar. Telefon danışığında prezidentlər bir-birini qarşılıqlı səfərlərə dəvət ediblər.

Şübhəsiz ki, dünyanın ayrı-ayrı regionlarında gərginliklər yaşandığı, xüsusilə də hər iki dövlətin maraq dairəsində olan Yaxın Şərqdə və Şərqi Avropada müharibələrin getdiyi bir dönəmdə iki liderin telefon danışığı aparması təsadüfi deyil. Belə görünür ki, ciddi narahatlıq doğuran geosiyasi vəziyyət prezidentlərin bir-birinin mövqelərini öyrənmələrinə və hansısa məsələlərdə əməkdaşlığın, koordinasiyalı fəaliyyətlərin mümkün olub-olmadığını dəqiqləşdirmələrinə zərurət yarandığı reallığını otaya qoyub. Burada Amerika Birləşmiş Ştatlarında yeni seçilmiş Prezident Donald Tramp vəzifəsinin icrasına başladıqdan sonra Vaşinqtonun xarici siyasət kursunda bir sıra istiqamətlərin önə çəkildiyini də ayrıca qeyd etmək lazımdır. O cümlədən Ağ Evin yeni sahibinin Ankara ilə siyasi dialoqu intensivləşdirməkdə maraqlı olduğu diqqət çəkir. Burada iki məqamı vurğulaya bilərik.

- Birinci məqam Türkiyə Prezidentinin yüksək liderlik keyfiyyətləri ilə bağlıdır. Dünya birliyi dəfələrlə onun bir sıra regional və qlobal məsələlərdə ədalət mövqeyindən çıxış etdiyinin və prinsipiallıq göstərdiyinin şahidi olub. Xatırlayaq ki, D.Tramp prezident seçildikdən sonra R.T.Ərdoğan barədə bir neçə dəfə müsbət fikirlər ifadə edib...

Bax səh. 6

# İki pis arasında seçim...



Bax səh. 6



# Şolts getdi, Merts gəlir...

Bax səh. 7

# Azərbaycan-Belarus: möhkəm dostluğa və qarşılıqlı etimada əsaslanan əlaqələr

## Prezident İlham Əliyev Belarusun Baş nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Belarus Respublikasının Baş naziri Aleksandr Turçini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanla Belarus arasında əlaqələrin möhkəm dostluğa və qarşılıqlı etimada əsaslandığını qeyd edərək, Aleksandr Turçinin Baş nazir vəzifəsinə təyin olunmasından sonra ilk səfərlərindən birini Azərbaycana etməsinin məhz ölkələrimiz arasında olan sıx tərəfdaşlıq münasibətlərinin mahiyyətindən xəbər verdiyini dedi.

Prezident İlham Əliyev Azərbaycanla Belarus arasında mövcud siyasi əlaqələrin ruhuna uyğun olaraq iqtisadi-ticari münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğuladı.

Aleksandr Turçin, ilk növbədə, Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Lukaşenkoya çatdırmağı xahiş etdi.

İlk dəfə Bakıya səfər etdiyini deyən Belarusun Baş naziri paytaxtımızda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Görüşdə Azərbaycanla Belarus arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı. Bu xüsusda Gəncə avtomobil zavodunda Belarus avtomobil texnikasının istehsalı və bu texnika üçün Azərbaycanın müxtəlif bölgələrində servis mərkəzlərinin yaradılmasının əhəmiyyəti vurğulandı. Azərbaycanda lift, məişət texnikası, kənd təsərrüfatı, xüsusilə heyvandarlıq, südçülük, ətçilik və quşçuluq üzrə birgə istehsal sahələrinin təşkili və təcrübə mübadiləsinin həyata keçirilməsinə dair müzakirələr aparıldı. Hökumətlərarası komissiyaya qeyd olunan istiqamətlər üzrə müvafiq tapşırıqlar verildi.

Söhbət zamanı dost ölkə Belarusun şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işlərində iştirakı məmnunluqla qeyd edildi. Belarusun Baş naziri ölkəmizə səfəri çərçivəsində azad edilmiş ərazilərə gedəcəyini və vəziyyətlə yerində tanış olacağını bildirdi.

Görüşdə ölkələrimiz arasında şəhərsalma sahəsində təcrübə mübadiləsinin aparılmasının vacibliyinə toxunuldu.

Dövlətimizin başçısı 2026-cı ildə Azərbaycanın Dünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyini deyərək, Belarusu da bu tədbirdə yaxından iştiraka dəvət etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Ağdam Sənaye Parkı və Sarıcalı kəndində...



Azərbaycanın Baş naziri Əli Əsədov və Belarus Respublikasının Baş naziri Aleksandr Turçin Ağdam Sənaye Parkına gəliblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Belarus hökumətinin başçısı sənaye parkı ilə tanışlıq zamanı burada görülən işlərlə maraqlanıb. Bildirilib ki, Ağdam rayonunda iqtisadiyyatın, yerli istehsalın inkişafı məqsədilə icra olunan layihələrdən biri Ağdam Sənaye Parkıdır. Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli fərmanına əsasən yaradılan sənaye parkı 190 hektar ərazini əhatə edir. Parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib.

Parkda "BAFCO İnvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin müxtəlif təyinatlı ayaqqabıların, "Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyətinin elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının, "Rail Trans Service" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomatlaşdırma və telemexanika sistemlərinin, "Mister Decor" Məhdud Məsuliyyətli Cəmiyyətinin divar kağızları, "Metkons" Məhdud Məsuliyyətli Cəmiyyətinin havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları, "Prof-Dam" Məhdud Məsuliyyətli Cəmiyyətinin dam örtükləri istehsalı zavodları fəaliyyət göstərir. Fəaliyyətə başlayan yeni müəssisələr tərəfindən Ağdam Sənaye Parkına, ümumilikdə, 35 milyon manatdan çox investisiya yatırılıb, 400-dən artıq daimi iş yeri yaradılıb.

Belarus nümayəndə heyəti parkı ziyarət zamanı Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinə "MAZ-5907S2-012" markalı kommunal təyinatlı avtomobil hədiyyə edib.

Sonra Sarıcalı kəndi ilə tanışlıq olub. Kənd Birinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il iyulun 23-də işğal olunmuşdu. İşğal dövründə kənd viran qoyularaq xarabalığa çevrilmişdi, burada evlərlə yanaşı, məktəb, uşaq bağçası, səhiyyə, ticarət, iaşə obyektləri də vəhşicəsinə məhv edilmişdi. Vətən müharibəsində Ordumuzun şanlı Qələbəsindən sonra üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana qaytarılıb. Sarıcalı kəndi işğaldan azad edildikdən sonra burada azərbaycanlılara aid kütləvi məzarlıq aşkarlanıb. İşğaldan əvvəl kənddə 239 ailə, ümumilikdə, 1024 nəfər əhali yaşayıb. Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub. Sarıcalı kəndi 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub.

Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri tikilib. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Artıq kənd sakinlərinin doğma yurdlarına qayıdışına başlanılıb.

# İlham Əliyev: Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq müsbət dinamika nümayiş etdirir

### Azərbaycan Respublikasının Prezidenti Vyetnam Sosialist Respublikasının "Vietnam News Agency" agentliyinə müsahibə verib



AZƏRTAC müsahibəni təqdim edir:

**-2025-ci il mayın 7-8-də Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lam Azərbaycan Respublikasına dövlət səfəri edəcək. Siz ölkələrimiz arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın indiki vəziyyətini necə qiymətləndirirsiniz?**

- Əvvəlcə qeyd etmək istərdim ki, Azərbaycanı və Vyetnamı yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri birləşdirir. Belə ki, 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Min Azərbaycan SSR-ə səfər edib. O dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev 1983-cü ildə Vyetnamda səfərdə olub. Şübhəsiz ki, bu əlamətdar səfərlər ölkələrimiz arasında əməkdaşlığın inkişafının möhkəm təməlinə çevrilib.

Mənim 2014-cü ildə ölkənizə dövlət səfərim və 2015-ci ildə Vyetnam Sosialist Respublikasının Prezidenti cənab Çıonq Tan Şanqın Azərbaycan Respublikasına rəsmi səfəri iki dövlət arasında münasibətlərdə yeni səhifə açdı və onların gələcək inkişafına təkan verdi. Prezident Çıonq Tan Şanqın səfəri çərçivəsində rəsmi şəxslərlə yanaşı, neft-qaz, energetika, inşaat, informasiya-kommunikasiya, maliyyə, sənaye, ticarət, turizm, nəqliyyat, əczaçılıq və digər sahələrin işgüzar dairələrinin iştirakı ilə Birinci Azərbaycan-Vyetnam biznes forumu keçirildi.

Müxtəlif sahələrdə əməkdaşlığın inkişafı, qarşılıqlı fəaliyyətin yeni istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyası yaradılıb. Komissiya mütəmadi dialoq və birgə təşəbbüslərin səmərəli reallaşdırılmasında mühüm platformadır.

Xarici İşlər nazirliklərinin xətti ilə siyasi məsləhətləşmələr aparılır. Onlardan sonuncusu bu il aprelin ikinci yarısında keçirilib. Hər iki ölkənin parlamentlərində parlamentlərarası əlaqələr üzrə işçi qrupları fəaliyyət göstərir.

Ölkələrimiz ən böyük beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı və BMT çərçivəsində səmərəli əməkdaşlıq edir.

Azərbaycan Vyetnamla iqtisadi və ticari əlaqələrin inkişafına böyük əhəmiyyət verir. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 223,93 milyon ABŞ dolları olub. Sözsüz ki, bizim bu göstəricini gələcəkdə də artırmaq üçün potensialımız mövcuddur.

Ölkələrimiz neft sahəsində də qarşılıqlı fəaliyyət göstərir. 2019-cu ildə Vyetnamın "Binh Son Refinery and Petrochemical Company" ilə SOCAR arasında müqavilə imzalanıb. Neft sahəsində əməkdaşlığımız möhkəm tarixi təmələ əsaslanır - çünki Azərbaycan mütəxəssisləri Vyetnamın neft sənayesinin yaradılmasında və inkişafında əsas rol oynayıblar. Təsadüfi deyil ki, 1981-ci ildə Sovet İttifaqının köməyi ilə yaradılan "Veso Petrol" müştərək müəssisəsinin ilk baş direktoru azərbaycanlı Cəlal Məmmədov olub.

Mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlığımızın kökləri sovet dövrünə gedib çıxır, amma son illərdə daha da inkişaf edib. 1955-ci ildə Azərbaycan bəstəkarı Qara Qarayev Vyetnam müharibəsi haqqında ilk sovet-Vyetnam sənədli filmi üçün "Vyetnam süitası"nı bəstələyib, onun premyerası 2023-cü ildə Hanoyda olub. 1959-1962-ci illərdə Prezident Ho Şi Minin dəvəti və sovet hökumətinin təklifi əsasında azərbaycanlı rejissor Əjdər İbrahimov Vyetnamda kino məktəbinin yaradılmasında fəal iştirak edib, orada ustad dərsləri keçib və üç film çəkib. O, bu xidmətlərinə görə Vyetnam Sosialist Respublikasının ali "Əmək" ordeni ilə mükafatlandırılıb.

Sovet dövründə Azərbaycanda 5 minə yaxın vyetnamlı təhsil alıb, onların bir çoxu hazırda Vyetnamın dövlət orqanlarında məsul vəzifələr tutur. Mənim 2014-cü ildə Hanoya səfərim zamanı Azərbaycan ali məktəblərinin vyetnamlı məzunları ilə görüş oldu, onlar ölkəmiz və burada keçirdikləri illərlə bağlı səmimi sözlər ifadə etdilər. 2015-ci ildə Hanoyda Azərbaycan ali məktəblərinin məzunlarını birləşdirən Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası təsis edildi.

Ölkələrimiz arasında mədəni əlaqələrdən söz düşmüşkən qeyd etmək istərdim ki, onlar müxtəlif təşəbbüslər və layihələr vasitəsilə inkişaf etməkdə və möhkəmlənməkdə davam edir. Məsələn, 2024-cü ildə Bakıda sizin əsgərlərin Vyetnam müharibəsində qəhrəmanlığına həsr edilmiş "Əfsanə yaradanlar" filminin nümayişi oldu. Həmin il paytaxtımızda Vyetnam Lideri Ho Şi Minin Azərbaycana səfərinin 65 illiyi münasibətilə Vyetnam Günləri keçirildi.

Heydər Əliyev Fondu 2018-ci ildə Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla, Vyetnamda fəal surətdə layihələr həyata keçirir. Bu ilin aprelində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkənizə səfəri çərçivəsində vitse-prezident Vo Ti An Suan, Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi Baş katibinin xanımı No Fon Li, yaradıcılıq sənayesinin nümayəndələri, Hanoy Ticarət və Turizm Kollecinin rəhbərləri, həmçinin Azərbaycanda təhsil almış vyetnamlı məzunlarla görüşüb. Görüş çərçivəsində Hanoy Ticarət və Turizm Kollecinə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bağlı sertifikat təqdim edilib.

Beləliklə, Azərbaycanla Vyetnam arasında münasibətlər bütün əsas sahələr üzrə uğurla inkişaf edir.

**-İkitərəfli münasibətlərin yeni səviyyəyə qaldırılması kontekstində Vyetnam Liderinin Azərbaycana qarşıdakı səfəri nə kimi əhəmiyyətə malikdir?**

-Məlum olduğu kimi, cənab Lamın qarşıdakı səfəri onun Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi qismində ilk səfəri olacaq. Tərəflərin ikitərəfli münasibətlərin dərinləşdirilməsi səylərini əks etdirən və qarşılıqlı fəaliyyətdə yeni istiqamətlər açan bu hadisə böyük siyasi əhəmiyyətə malikdir. Bu kontekstdə səfəri haqlı olaraq Azərbaycan-Vyetnam əməkdaşlığının inkişafında mühüm mərhələ kimi qiymətləndirmək olar.

Səfər proqramına ikitərəfli gündəliyin əsas aspektlərini əhatə edən məsələlərin geniş dairəsi daxildir. Bu, aktual mövzulara dair hərtərəfli fikir mübadiləsi aparmağa, yanaşmaları razılaşdırmağa və gələcəkdə qarşılıqlı fəaliyyətin perspektiv istiqamətlərini müəyyənləşdirməyə imkan verəcək. Siyasi dialoqa, iqtisadi-ticari əlaqələrə, həmçinin humanitar və mədəni mübadiləyə xüsusi diqqət yetiriləcək.

Bundan başqa, partiyalararası dialoqun inkişafına ayrıca əhəmiyyət verilir. Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq müsbət dinamika nümayiş etdirir. Qarşıdakı səfər siyasi və ideoloji zəmində qarşılıqlı fəaliyyətin yüksək səviyyəsinin əlavə təsdiqi olacaq.

İnanıram ki, cənab Lamın səfəri daha fəal əməkdaşlığa mühüm təkan olacaq, Azərbaycanla Vyetnam arasında münasibətlərin dostluq və qarşılıqlı hörmət ruhunda inkişafı üçün yeni üfüqlər açacaq.

**-Vyetnam ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişafı üçün hansı perspektivlər və potensial mövcuddur?**

-Hesab edirəm ki, ölkələrimiz ən müxtəlif sahələrdə əməkdaşlıq potensialını bundan sonra da inkişaf etdirmək üçün bütün imkanlara malikdir. İqtisadi-ticari münasibətlərdən danışarkən qeyd etmək lazımdır ki, bu gün təkcə iqtisadi artımı stimullaşdıracaq deyil, həm də qarşılıqlı faydalı tərəfdaşlıq üçün dayanıqlı zəmin yaradacaq, bununla da öz növbəsində iqtisadiyyatlarımızın gələcəkdə də şaxələndirilməsinə kömək edəcək yeni əməkdaşlıq imkanları mövcuddur.

Ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsinin əsas perspektivli istiqamətlərindən biri turizmdir. Bakı ilə Vyetnam şəhərləri arasında birbaşa hava əlaqəsinin yaradılması turizm proqramlarının inkişafı ilə paralel surətdə iki ölkənin vətəndaşlarının bir-birinin mədəniyyətinə və tarixinə marağının artmasına kömək edəcək. Müştərək mədəniyyət layihələrinin intensivləşdirilməsi, səhiyyə və ekologiya sahələrində humanitar missiyalarla bağlı proqramların və birgə təşəbbüslərin inkişafı - bütün bunlar ölkələrimiz üçün qarşılıqlı maraq doğuran istiqamətlərdir.

Əlbəttə, təhsil sahəsi. Həmişə olduğu kimi, Vyetnamdan tələbələrin gəlmələrinə şad olacağıq. Onlar Qoşulmama Hərəkatına üzv ölkələrin vətəndaşları üçün Azərbaycanın təklif etdiyi qrantlar və təqaüdlər çərçivəsində təhsil proqramlarından istifadə edə bilərlər. Bu, akademik mübadilə, elmi tədqiqatlar və Azərbaycanla Vyetnam arasında şəxsi təmasların möhkəmləndirilməsi üzrə imkanları yaxşılaşdıracaq. Mübadilə proqramlarının reallaşdırılması, həmçinin elmi-texniki sahədə əməkdaşlıq ikitərəfli münasibətlərin inkişafı üçün daha bir perspektivli istiqamətə çevrilə bilər.

# Xalqın və dövlətin xilaskarı



Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü xalqımız tərəfindən dərin ehtiram və böyük minnətdarlıq hissi ilə qeyd olunur. Onun müdrikliyi, siyasi iradəsi və milli maraqlara əsaslanan fəaliyyəti sayəsində Azərbaycan tarixin ən mürəkkəb mərhələlərindən uğurla çıxmış, sabit və güclü dövlət kimi formalaşmışdır. Heydər Əliyev həm də xalqın taleyinə məsuliyyətlə yanaşan böyük lider, tarix yazan şəxsiyyət olmuşdur.

XX əsrin ikinci yarısı Azərbaycan SSR-in tarixində əlamətdar bir dönəm olmuş, bu dövr ölkənin gələcək inkişafının əsasını qoyan mühüm addımlarla yadda qalmışdır. Məhz bu dövrdə - 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə ölkənin həyatında yeni mərhələnin əsası qoyulmuşdur. Onun rəhbərliyi ilə qısa müddətdə islahatlara start verilmiş, iqtisadiyyatın müxtəlif sahələrində ciddi canlanma müşahidə olunmuş, elm, təhsil və mədəniyyətin inkişafı üçün məqsədyönlü addımlar atılmışdır.

Ulu Öndər Heydər Əliyev Sovet dövrünün sərt ideoloji qadağalarına rəğmən milli maraqlara əsaslanan strateji yanaşma nümayiş etdirirdi. Onun təşəbbüsü ilə Azərbaycanda sənayeləşmə prosesi sürətləndi, ölkəmizin müxtəlif bölgələrində yeni zavodlar və fabriklər inşa edildi, minlərlə gəncin SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil alması təmin edildi. Milli kadrların hazırlanması və onların rəhbər vəzifələrə irəli çəkilməsi Ümummilli Liderin dövlətçilik strategiyasının prioritetlərindən biri idi.

Xüsusilə 1978-ci ildə qəbul olunan Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması Dahi Lider Heydər Əliyevin milli iradəsinin və uzaqgörən siyasətinin bariz nümunəsidir. Bu addım milli kimliyin qorunub inkişaf etdirilməsinə mühüm töhfə verməklə yanaşı, xalqda qürur hissinin və özünüdərkin daha da güclənməsinə səbəb olmuşdur.

1982-ci ildə SSRİ rəhbərliyində yüksək vəzifəyə - Nazirlər Soveti Sədrinin birinci müavini postuna irəli çəkilən Ulu Öndər Heydər Əliyev artıq ittifaq miqyasında fəaliyyətini uğurla davam etdirmişdir. Bu strateji mövqedə çalışdığı müddətdə Ümummilli Lider Azərbaycanın sosial-iqtisadi inkişafı naminə mühüm təşəbbüslərlə çıxış etmiş, respublika üçün əlavə maliyyə və texniki resursların ayrılmasına, iri layihələrin təsdiqinə və mühüm qərarların qəbul olunmasına nail olmuşdur. Mərkəzdə yüksək vəzifə tutmasına baxmayaraq tarixi şəxsiyyət daim xalqın maraqlarını müdafiə etmiş, milli ideyaların yaşadılmasına böyük töhfə vermişdir. Məhz bu uzaqgörən və qətiyyətli fəaliyyət Heydər Əliyevin müasir dövlətçilik tariximizin formalaşmasında müstəsna rolunu təsdiqləyən əsas sütunlardan biri kimi dəyərləndirilir.

1990-cı illərin əvvəlləri Azərbaycanın müstəqillik tarixində siyasi və sosial-iqtisadi baxımdan ən gərgin dövrlərdən biri kimi yadda qalmışdır. Ölkənin o vaxtkı rəhbərliyinin səriştəsizliyi və milli mənafeyə zidd mövqeyi, Dağlıq Qarabağ münaqişəsinin genişlənməsi və separatçılıq meyillərinin artması ölkədə dərin siyasi böhranın yaranmasına səbəb olmuşdur. 1993-cü ildə Azərbaycanın parçalanmaq təhlükəsi ilə üz-üzə qaldığı, anarxiya və siyasi böhranın hökm sürdüyü bir şəraitdə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan dahi lider Heydər Əliyev ölkəni xaosdan və vətəndaş müharibəsindən xilas etmiş, sabitliyin bərpasına nail olaraq yeni bir inkişaf mərhələsinin əsasını qoymuşdur.



**Səfa Ağayev,**
**YAP İmişli rayon təşkilatının sədri**

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən diplomatik təşəbbüslər Azərbaycanın gələcəyinə dair müsbət bir dönüş yaratdı. 1994-cü il mayın 12-də Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi və qətiyyətli diplomatik fəaliyyəti nəticəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı atəşkəs razılığı əldə olundu. Bu mühüm sənəd müharibənin daha da şiddətlənməsinin qarşısını alaraq ölkənin sabitliyə doğru irəliləməsində həlledici rol oynadı.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və praqmatik siyasəti nəticəsində 1994-cü il sentyabrın 20-də dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalanmışdır. Bu tarixi razılaşma Azərbaycanın müstəqil dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq əzmini, milli maraqlarını müdafiə etmək iradəsini və beynəlxalq enerji bazarında etibarlı tərəfdaş olduğunu bütün dünyaya nümayiş etdirmişdir. "Əsrin müqaviləsi" həm də ölkənin iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi, xarici sərmayələrin cəlbi və uzunmüddətli inkişaf strategiyasının gerçəkləşdirilməsi baxımından fundamental rol oynamışdır.

1995-ci il noyabrın 12-də Ulu Öndərin təşəbbüsü ilə Azərbaycanın tarixində ilk dəfə olaraq müstəqil dövlətimizin Konstitusiyası ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmişdir. Çoxəsrlik dövlətçilik ənənələrinə, milli və ümumbəşəri dəyərlərə əsaslanan Azərbaycan Respublikasının Konstitusiyası ötən illər ərzində özünü tam doğrultmuş, demokratikləşmə, insan hüquq və azadlıqlarının təmin edilməsi, qanunun aliliyinin möhkəmləndirilməsi, eləcə də bazar iqtisadiyyatının formalaşdırılması istiqamətində aparılan islahatlar üçün etibarlı hüquqi baza kimi çıxış etmişdir.

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət strategiyası Azərbaycanın qlobal aləmdə nüfuzunun möhkəmlənməsinə və beynəlxalq təşkilatlarla əməkdaşlığın genişlənməsinə mühüm təkan verdi. Onun rəhbərliyi ilə Azərbaycan nüfuzlu qurumlarla münasibətlərini gücləndirərək qlobal siyasətdə öz sözünü deyən və regional sabitliyə töhfə verən ölkə kimi tanındı. Dövlətimizin milli maraqları beynəlxalq səviyyədə müdafiə olundu, ikitərəfli və çoxtərəfli diplomatik əlaqələr sistemli şəkildə inkişaf etdirildi.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi nəticəsində reallaşan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri Azərbaycanın enerji strategiyasının əsas sütunlarını təşkil edir. Bu layihələr ölkəmizin təbii ehtiyatlarının dünya bazarına çıxarılmasını təmin edərək ölkəmizin regional və qlobal enerji təhlükəsizliyində strateji rolunu möhkəmləndirdi. Ümummilli Liderin diplomatik çevikliyi və gələcəyə hesablanmış qərarları nəticəsində bu kəmərlər ölkəmizin iqtisadi müstəqilliyinə, geosiyasi mövqeyinin güclənməsinə və beynəlxalq nüfuzunun artmasına mühüm töhfə verdi.

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət idarəçiliyində milli maraqlara əsaslanan prinsipial mövqe, güclü və sabit dövlət quruculuğu, strateji tərəfdaşlıqların inkişafı və müstəqil siyasət yürütmək kimi əsas prioritetlər müasir dövrün çağırışlarına uyğun şəkildə yenilənərək həyata keçirilir. Bu siyasət nəticəsində ölkənin hərtərəfli inkişafı təmin olunmuş, Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş və nüfuzlu aktora çevrilmişdir.

Xüsusilə, 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu milli dövlətçilik ideyaları və uzaqgörən ordu quruculuğu strategiyasının parlaq nəticəsi oldu. Bu Zəfəri mümkün edən amillərdən biri də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasi iradəsi, sərkərdəlik məharəti və xalqla nümayiş etdirdiyi sarsılmaz birlik idi. Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə yekunlaşan bu tarixi hadisə Ulu Öndərin "Biz güclü dövlət qurmalıyıq" prinsipinin reallığa çevrildiyini təsdiqlədi. Beləliklə, Heydər Əliyevin ideyaları zamanın sınağından uğurla çıxaraq bu gün də milli nailiyyətlərin və strateji qələbələrin ideoloji əsasını təşkil edir.

# Heydər Əliyev ideyaları əbədiyaşardır



Xalqımız Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünü böyük ehtiram və sonsuz minnətdarlıq hissi ilə yad edir. Parlaq ideyaları, zəngin siyasi irsi və yüksək idarəçilik keyfiyyətləri sayəsində Ulu Öndər dünya tarixində silinməz iz qoymuş görkəmli liderlərdən biri kimi tanınmışdır. Dövlətə və xalqa sədaqətlə xidmət edən Dahi Liderin milli maraqlara əsaslanan uzaqgörən siyasəti nəticəsində Azərbaycan sabitlik, təhlükəsizlik və dayanıqlı inkişaf yoluna qədəm qoymuşdur. Bu gün də Heydər Əliyevin ideyaları müasir dövlətçilik ənənələrinin təməlini təşkil edir.

Ümummilli Lider Heydər Əliyev 1923-cü il mayın 10-da qədim və zəngin tarixə malik Naxçıvan şəhərində dünyaya gəlmişdir. Ulu Öndər istər Sovet dövründə, istərsə də müstəqillik illərində tutduğu hər bir yüksək vəzifədə yalnız xalqın rifahını əsas prinsip kimi qəbul etmiş, bu yolda böyük əzmkarlıq və siyasi iradə nümayiş etdirmişdir.

1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə respublikamızın həyatında böyük inkişaf mərhələsi başlanmışdır. Dahi Liderin təşkilatçılıq bacarığı və qətiyyətli mövqeyi nəticəsində Azərbaycan mühüm sosial-iqtisadi nailiyyətlər əldə etmişdir. Heydər Əliyev mərkəzi Sovet hakimiyyətinin ciddi məhdudiyyətlərinə baxmayaraq, Azərbaycanın milli maraqlarını daim ön planda saxlamış, xalqımızın hüquqlarını müdafiə etmiş və milli özünüdərkin möhkəmləndirilməsi üçün vacib addımlar atmışdır. Onun təşəbbüsü ilə respublikanın sənaye potensialı gücləndirilmiş, yeni zavod və fabriklər istifadəyə verilmiş, kənd təsərrüfatında məhsuldarlıq artmış və xalqın sosial rifahı yaxşılaşdırılmışdır.

Təhsil sahəsində ciddi islahatlara start verilmiş, minlərlə azərbaycanlı gəncin SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil alması təmin olunmuşdur. Bu amillər gələcəkdə ölkənin elmi, intellektual və peşəkar potensialının formalaşmasında mühüm rol oynamışdır. Eyni zamanda, mədəniyyət və incəsənət sahəsində də böyük dirçəliş yaşanmış, milli dəyərlərin təbliği, tarixi yaddaşın qorunması və yaradıcı mühitin inkişafı üçün hərtərəfli şərait yaradılmışdır. Bütün bu uğurlar Heydər Əliyevin müdrik siyasəti və xalqa olan sonsuz məhəbbətinin təcəssümü kimi Azərbaycanın gələcək müstəqil inkişafının təməlini təşkil etmişdir.

Ümummilli Liderin prinsipial mövqeyi nəticəsində ana dili və zəngin mədəni irsimiz qorunub saxlanılmışdır. Xüsusilə, 1978-ci ildə qəbul edilən Azərbaycan SSR-in Konstitusiyasında ana dilinin dövlət dili statusu alması milli kimliyimizin hüquqi müstəvidə təsbit olunması baxımından mühüm önəm kəsb edir.

1992-ci il noyabrın 21-də Ümummilli Lider Heydər Əliyevin sədrliyi və 550 nəfərlik təşəbbüs qrupunun iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Dahi Lider Heydər Əliyevin siyasi uzaqgörənliyi və milli maraqlara əsaslanan baxışı əsasında formalaşan bu partiya "Dövlətə sədaqət, xalqa xidmət" prinsipi ilə fəaliyyətə başlamışdır.

Həmin dövrdə ölkəmizdə siyasi böhran, idarəetmədə xaos, iqtisadi tənəzzül və separatizm təhlükəsi hökm sürürdü. Xalqın təkidli tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəni parçalanmaq təhlükəsindən xilas etdi, Dahi Lider qısa müddətdə sabitlik yaradaraq dövlət müstəqilliyinin möhkəmləndirilməsini təmin edən təməl formalaşdırdı. Onun rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası qısa müddətdə xalqın böyük etimadını qazanaraq ölkədə sabitliyin bərpa olunmasında aparıcı siyasi qüvvəyə çevrildi.

Ulu Öndər Heydər Əliyevin islahatları nəticəsində nizami Azərbaycan Ordusunun formalaşdırılmasına başlanılmışdır. Onun rəhbərliyi ilə ordu quruculuğu dövlətin əsas prioritetlərindən birinə çevrilmiş, müasir tələblərə cavab verən hərbi struktur yaradılmış və peşəkar kadrların hazırlanması istiqamətində mühüm addımlar atılmışdır. Bu proses Azərbaycan Silahlı Qüvvələrinin güclü hərbi potensialının formalaşdırılması baxımından tarixi əhəmiyyətə malik olmuşdur.

Bu mərhələdə Ümummilli Lider Heydər Əliyevin atdığı strateji addımlardan biri 1994-cü il sentyabrın 20-də imzalanan və sonradan "Əsrin müqaviləsi" kimi tarixə düşən neft sazişi oldu. Dünyanın aparıcı neft şirkətləri ilə imzalanan bu müqavilə Azərbaycanın müstəqil enerji strategiyasının təməlini qoyaraq ölkənin iqtisadi inkişafında yeni mərhələ açdı. "Əsrin müqaviləsi" həm də Azərbaycanın beynəlxalq arenada mövqelərinin möhkəmlənməsi baxımından mühüm əhəmiyyət daşıyırdı. Beləliklə, Azərbaycan zəngin karbohidrogen ehtiyatlarını dünya bazarına çıxarmaqla yanaşı, transmilli layihələrin əsas iştirakçısına və Cənubi Qafqazın aparıcı geosiyasi aktoruna çevrildi. Bu saziş müstəqil ölkəmizin uzunmüddətli inkişaf strategiyasının əsas dayaqlarından biri oldu.

1995-ci il noyabrın 12-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizin hüquqi, demokratik və dünyəvi dövlət kimi inkişafı üçün əsas hüquqi baza yaratmışdır. Bu tarixi sənəd insan hüquq və azadlıqlarının təminatçısı kimi çıxış etmişdir.

Dahi Lider Heydər Əliyevin milli maraqlara əsaslanan xarici strategiyası həm ölkəmizin beynəlxalq münasibətlər sistemində mövqeyini möhkəmləndirmişdir. Azərbaycan nüfuzlu beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edərək qlobal arenada etibarlı tərəfdaş kimi tanınmışdır.

Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə təməli qoyulmuş Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi mühüm transmilli enerji layihələri Dahi Liderin diplomatik müdrikliyi və qətiyyətli siyasi iradəsi sayəsində uğurla reallaşdırılmışdır. Həmin layihələr Azərbaycanın zəngin enerji ehtiyatlarını beynəlxalq bazarlara etibarlı və alternativ marşrutlarla çıxarmaqla yanaşı, ölkəmizin Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynamasını təmin etmişdir. Bununla da Azərbaycan yalnız enerji ixracatçısı deyil, həm də regionda iqtisadi əməkdaşlığın, siyasi sabitliyin və geostrateji tərəfdaşlığın mühüm mərkəzinə çevrilmişdir. Bu uğurlar bir daha təsdiqləyir ki, Ulu Öndər Heydər Əliyevin enerji strategiyası geosiyasi hədəflərə hesablanmış bir yol xəritəsidir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimiz mühüm tarixi zəfərlərə imza atmış, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli maraqların qorunması və ərazi bütövlüyünün təmin olunması istiqamətində qətiyyətli addımlar atılmışdır. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı xalq-iqtidar-ordu birliyinin nəticəsi olaraq torpaqlarımız işğaldan azad edilmiş, tarixi ədalət bərpa olunmuşdur. Bu möhtəşəm Qələbənin təməlində isə Ulu Öndər Heydər Əliyevin milli maraqlara əsaslanan dövlətçilik ənənələri dayanır.

Dövlətimizin başçısı həmin siyasi kursu müasir dövrün çağırışlarına uyğun şəkildə davam etdirərək Azərbaycanın beynəlxalq mövqelərini daha da möhkəmləndirmiş, ölkəmizi regionda və dünyada söz sahibi olan qüdrətli bir dövlətə çevirmişdir. Ulu Öndər Heydər Əliyevin ideyalarına əsaslanan və Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən milli strategiya Azərbaycanı sabitlik, davamlı inkişaf və parlaq gələcək yolunda əmin addımlarla irəli aparır.

Ulu Öndər Heydər Əliyev dövlətçilik ənənələrinin təməlini qoyan, milli ideologiyanın formalaşmasında müstəsna rol oynayan görkəmli tarixi şəxsiyyət kimi yaddaşlarda əbədi qalacaqdır. Onun əvəzolunmaz xidmətləri xalqımız tərəfindən hər zaman dərin ehtiramla xatırlanacaqdır.



**Vüqar İsayev,**
**YAP Göygöl rayon təşkilatının sədri**

# Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilən tədbir keçirilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilən tədbir keçirilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, YAP Yasamal Rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Nazir Anar Əliyev Ümummilli Lider Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci illərində Azərbaycanı o zamankı ittifaq məkanında geridə qalan aqrar respublikalar sırasından dinamik inkişaf edən qabaqcıl respublikalar sırasına çıxardığını vurğulayıb. Bildirib ki, Ulu Öndərin 1993-cü ilin iyun ayında xalqın çağırışı ilə yenidən ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən, dərin siyasi, iqtisadi və sosial böhrandan xilas edib.



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin ölkəmizin sosial inkişaf strategiyasını da formalaşdırdığını diqqətə çatdıran nazir qeyd edib ki, Ulu Öndərin müəllifi olduğu, 1995-ci ildə qəbul edilən müstəqil Azərbaycanın ilk milli Konstitusiyasında da Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit olunub. Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməsi nəticəsində Azərbaycan mühüm tarixi nailiyyətlərə imza atıb, möhtəşəm tarixi Zəfər qazanıb.

Dövlətimizin başçısının tapşırıqları əsasında son illər icra olunan ardıcıl sosial islahatların uğurlarını diqqətə çatdıran Anar Əliyev Ulu Öndərin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının nazirlik üzrə Yasamal rayonu, Salatın Əsgərova 85 ərazi partiya təşkilatının fəaliyyətini qeyd edib.

Nazirliyin Aparatında və tabeliyindəki qurumlarda 96 ərazi partiya təşkilatının yaradıldığı, nazirlik sistemi üzrə YAP üzvləri olan əməkdaşların sayının 5 min 500-ə yaxın olduğu bildirilib.

Tahir Budaqov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən bəhs edib. O, hələ sovet dövründə Ulu Öndərin gördüyü böyük işlərin Azərbaycanın sonralar müstəqil dövlət kimi inkişaf etməsində mühüm rola malik olduğunu, respublikamıza rəhbərliyə qayıtdıqdan sonra müstəqil Azərbaycan dövlətini quraraq onu uzunmüddətli tərəqqi yoluna çıxardığını qeyd edib.

Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində bu gün Azərbaycan nəinki regionda lider dövlətdir, həmçinin böyük bir coğrafiyanı əhatə edən məkanda söz sahibi kimi böyük nüfuza malikdir.

Sonra nazirlik sistemində çalışan əməkdaşlardan daha 144 nəfərə YAP-ın üzvlük vəsiqələri təqdim olunub.

Partiyaya yeni üzv qəbul olunan əməkdaşlar göstərilən yüksək inam və etimada görə minnətdarlıqlarını ifadə ediblər.

# Qlobal siyasətin Azərbaycan modeli...

## Suveren, açıq, balanslı və strateji yönümlü yeni dünya reallıqları

## Yeni dünya düzənində Bakının lider statusu

Yaşadığımız günlər həm tarixi, həm də strateji əhəmiyyətinə görə cəlbedicidir. O mənada ki, həftəsonu, yəni mayın 9-da II Dünya müharibəsinin bitməsinin 80 illiyi qeyd ediləcək. Bu münasibətlə dünyanın fərqli regionlarını təmsil edən dövlət və hökumət başçılarının Moskvaya səfəri gözlənilir. Qeyd edək ki, yayılan informasiyalara görə, MDB dövlət başçıları, eləcə də Braziliya Prezidenti Luis İnasiu Lula da Silva, Venesuela Prezidenti Nikolas Maduro, Vyetnamın dövlət başçısı To Lam, Çin Xalq Respublikasının Sədri Si Cinpin, Serbiya Prezidenti Aleksandr Vuçiç, Slovakiyanın Baş naziri Robert Fitso və digərləri də daxil olmaqla, ümumilikdə, 19 dövlət və hökumət rəhbəri tədbirdə iştirak edəcək.

### Tramp gəlmir...

Qeyd edək ki, bir müddət əvvəl Rusiya-Amerika münasibətlərinin normallaşması fonunda ABŞ Prezidenti Donald Trampın da Moskvaya səfər etməsi ilə bağlı ehtimallar irəli sürülsə də, bu, öz təsdiqini tapmamışdı. Məsələ ilə bağlı Rusiya prezidentinin mətbuat katibi Peskov bəyan etmişdi ki, Tramp tədbirdə iştirak etmək qərarına gəlsə, onlar Moskvada ABŞ prezidentini qəbul etməkdən yalnız məmnun olacaqlar. Bununla belə, Tramp administrasiyası bəyan etdi ki, Tramp mayın 9-da qeyd olunacaq tədbirdə iştirak etməyi planlaşdırmır.

Hindistanın baş naziri Narendra Modi də əvvəllər tədbirdə iştirak edəcəyini təsdiqləsə də, sonradan iştirak etməyəcəyini bəyan edib. Bu səfərin ləğvi Hindistan-Pakistan münasibətlərindəki artan gərginliklə əlaqələndirilir.



### Təhdidlər işə yaramadı...

Maraqlı cəhət orasındadır ki, bu tədbir yeni situasiyada özünün fərqli ştrixləri ilə seçilir. Belə ki, bir müddət öncə Avropa İttifaqı səfərə hazırlaşan dövlətlərə Rusiyaya səfərdən çəkinməyə çağırmışdı - hətta Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaia Kallas quruma üzv və namizəd ölkələrin liderlərinə Moskvaya səfər etməmək barədə xəbərdarlıq etmişdi. Bununla belə Serbiya Prezidenti Vuçiç və Slovakiyanın Baş naziri Fitso Aİ rəhbərliyinin bütün təhdid və xəbərdarlıqlarına məhəl qoymayaraq, tədbirə qatılacaqlarını bildiriblər.

### Bakıdan başlanan "yol"...

Bu tədbirin zahiri görünüşü ilə yanaşı, yeni qlobal situasiyada verə biləcəyi mesajlar da çox böyük maraq kəsb edir. Belə ki, bir sıra Qərb siyasətçiləri tədbirdə yanaşı dayanacaq dövlət başçılarının əksəriyyətini yeni dövrün siyasi-iqtisadi oyunçuları sırasında qeyd edirlər. Başqa sözlə, bu "toplantı" Avropadan kənarda formalaşan dünya düzəninin strateji yol xəritəsi sayılır. Xüsusilə, diqqət çəkən məqamlardan biri isə tədbirdə son günlərin siyasi müzakirələrində ən çox populyarlıq qazanan iki strateji tərəfdaş dövlətin - Azərbaycanın və Çinin iştirakıdır. Hətta bir sıra siyasi texnoloqlar yeni iqtisadi xəritənin formalaşması ərəfəsində digər dövlətlərin tədbirə can atmasını məhz bu iki dövlətin oradakı iştirakı ilə əlaqələndirirlər. Çin-Azərbaycan əməkdaşlığının dünyaya təqdim edəcəyi iqtisadi, həm də siyasi imkanlarla, perspektivlə tanış olmaq üçün Moskvaya səfərin bu qədər cəlbedici olduğu vurğulanır.

Bəli, gözlənilir ki, 9 mayda Moskvada keçiriləcək yüksək səviyyəli beynəlxalq tədbir yeni qlobal düzənin formalaşdığı bir dönəmdə mühüm siyasi mesajların ünvanı olsun - 19 ölkənin dövlət və hökumət başçısının, o cümlədən Çin və Azərbaycanın liderlərinin, eləcə də müxtəlif regionlardan hərbi kontingentlərin iştirakı tədbirin sıradan bir mərasim yox, geosiyasi çəkisi olan simvolik bir platforma olduğunu təsdiqləyir. Razılaşmaq olar ki, bu tədbir fonunda Azərbaycanın iştirakı və beynəlxalq arenada nümayiş etdirdiyi fəal mövqe, ölkənin yeni geosiyasi mərhələdə oynadığı rolu açıq şəkildə ortaya qoyur - tədbirdən qabaq, hətta son 1 il ərzində bir çox dövlətlərin Bakıda səsləndirdikləri fikirləri xatırlasaq, bunun şahidi olarıq. Nəzərə alınmalıdır ki, Avropa kontingentinə daxil olan bir çox dövlətlərin rəhbərləri dəfələrlə Azərbaycandan öyrəniləcək çox şeylərin olduğunu etiraf etmişlər, ölkəmizi "xilaskar" adlandırmışlar...

### Qütblərin qovşağı - Bakı Avropanın "nəfəsliyi" kimi...

Vurğulandığı kimi, tədbiröncəsi Çin ilə Azərbaycan arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında sənədin imzalanması, ardından Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın və ATƏT-in Baş katibi Feridun Sinirlioğlunun Bakıya səfərləri prosesə xüsusi "rəng" qatır. Azərbaycan və Çin arasında imzalanmış sənəd təkcə ikitərəfli münasibətlərin inkişafı deyil, həm də Azərbaycanın Asiya-Sakit okean bölgəsi ilə Avropa arasında iqtisadi inteqrasiyasının dərinləşməsi baxımından mühüm addımdır. Çin ilə son 1 ildə imzalanan iki strateji sənəddə ticarət, energetika, nəqliyyat, rəqəmsal texnologiyalar və beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək kimi sahələr üzrə konkret əməkdaşlıq vədləri yer alıb - bu isə siyasi-iqtisadi proseslərin inkişafına baxışa da yeni nəfəs verir. Bu strateji yaxınlaşma Azərbaycanın "Bir kəmər, bir yol" layihəsində əsas rol oynadığını təsdiqləyir. Orta Dəhlizin əsas iştirakçısı olan Azərbaycan, bu yolla yalnız regionda deyil, Avrasiya məkanında iqtisadi və geosiyasi baxımdan açar mövqeyə sahib olur. Çin kimi dünya gücünün Azərbaycanı strateji tərəfdaş kimi tanıması, Azərbaycanın beynəlxalq statusunu gücləndirən mühüm diplomatik nailiyyət olduğu qədər, Bakı ilə dost münasibətə malik Avropa dövlətləri üçün də "nəfəslikdir".

### Bakı Şimal-Cənub xəttini aktuallaşdırır...

Son iki ayda baş verən siyasi hadisələr, səfərlər, razılaşmalar və şəkilləndirmələr bir daha təsdiqləyir k, Bakı dördcəhətli qütblər arasında körpüdür. Şərq ilə Qərb qədər Şimal ilə Cənub arasında da əhəmiyyətli keçid xətti olan Azərbaycan bir daha təsdiqlədi ki, bütün ölkə və təşkilatlarla yaxın tərəfdaşlıq əlaqələrinin qurulmasında, inkişafında maraqlıdır. İran Prezidentinin Bakı səfəri zamanı Şimal-Cənub xətti üzrə iqtisadi şəkilləndirmənin genişləndirilməsi barədə müsbət fikirlər Moskva toplantısı ilə məntiqi şəkildə davam etdiriləcək. Azərbaycan necə ki, İran ilə müsbət qonşuluq və ticari-iqtisadi, eləcə də siyasi münasibətləri yüksək notlarla tutmaq istədiyini ortaya qoyur, eləcə də Rusiya ilə analoji münasibətlər sistemini saxlayır. Azərbaycanın Moskva tədbirində iştirakı həm də Cənubi Qafqazın lider ölkəsi statusu ilə Şimal-Cənub xətti üzrə əhəmiyyətini büruzə verir. Azərbaycan bu münasibətləri praqmatik maraqlar və qarşılıqlı hörmət əsasında tənzimləyir və digər dövlətlər də bu faktı dəf edir. Ölkəmizin balanslaşdırılmış və çoxvektorlu xarici siyasət kursunun ən bariz təsdiqi kimi, həm Şimal, həm Cənub, şəm də Şərq-Qərb trayektoriyası üzrə əməkdaşlıq portfelini genişləndirməsi göstərilə bilər. Mənzərə həm də Azərbaycanın böyük güclər arasında "tərəf tutmadan tərəfdaşlıq" modelini uğurla tətbiq etdiyini göstərir.

### Beynəlxalq təhlükəsizlik və ticarət sxemi...

Moskva tədbirində region ölkələri ilə yanaşı, Avropa, Asiya və Latın Amerikasından nümayəndə heyətləri - paralel olaraq yeni beynəlxalq təhlükəsizlik və ticarət modelinin axtarışında olan müxtəlif güc mərkəzləri bir araya gələcək. Bu baxımdan Azərbaycanın orada iştirakı onun regional oyunçu yox, beynəlxalq proseslərə töhfə verən məsuliyyətli tərəfdaş statusunu önə çıxarır. COP29 kimi mötəbər tədbirə ev sahibliyi edən, Avropa ilə enerji əməkdaşlığını dərinləşdirən, eyni zamanda Çinlə strateji tərəfdaşlıq quran Azərbaycan, diplomatik baxımdan dünya güclərinin "kəsişmə nöqtəsi"nə çevrilir. Hətta hazırkı qlobal proseslər bir sıra məqamlara ayrıca toxunmağı zəruri edir: Dünya artıq birtərəfli hegemonluq modelindən çoxqütblü nizam istiqamətində dəyişir. Bu yeni düzəndə yalnız hərbi və iqtisadi güc deyil, çevik diplomatiya, regional sabitlik və qarşılıqlı fayda prinsiplərinə əsaslanan siyasət də həlledici rol oynayır. Azərbaycan məhz bu modelin təcəssümüdür.

### İştirakçıdan idarəedici statusa doğru...

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən milli maraqlara əsaslanan xarici siyasət nəticəsində Azərbaycan həm Qərb, həm Şərq, həm də İslam aləmi ilə bərabərhüquqlu tərəfdaşlıqlar qurur. Bu balanslı yanaşma ölkəmizin beynəlxalq aləmdə etibarlı və proqnozlaşdırılan aktor kimi qəbul olunmasını təmin edir. Moskvada keçiriləcək tədbirdə Azərbaycan liderinin iştirakı və beynəlxalq kontingentlərin onu əhatə edən mühiti, əslində yeni dünya düzəninin etibarlı platformasının necə formalaşdığını nümayiş etdirir. Çinlə strateji sənəd, Avropa ilə enerji əməkdaşlığı, COP29 kimi beynəlxalq tədbirə ev sahibliyi, Azərbaycanın yalnız regional deyil, qlobal səviyyədə təsir gücünün göstəricisi kimi önə çıxır. Bu reallıqlar fonunda Azərbaycan artıq sadəcə proseslərin iştirakçısı yox, onların istiqamətini müəyyən edən aparıcı ölkələrdən biri kimi çıxış edir. Qlobal siyasətin "kölgəsində" qalmaq əvəzinə, onu yönləndirməyə çalışan yeni Azərbaycan modeli - suveren, açıq, balanslı və strateji yönümlü yeni dünyanın reallıqları ilə tam uzlaşır...

***Pərviz SADAYOĞLU***

# Bakı-Minsk iqtisadi əlaqələri strateji xarakter daşıyır

## Bakıda keçirilən biznes-forumda əməkdaşlığın yeni yol xəritəsi müəyyənləşdirilib




İqtisadiyyat Nazirliyinin dəstəyi və İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO), Belarus Ticarət və Sənaye Palatasının birgə təşkilatçılığı ilə Bakıda keçirilən Azərbaycan-Belarus biznes forumunda iki ölkədən hökumət nümayəndələri ilə yanaşı, kənd təsərrüfatı, sənaye, logistika, tikinti, ticarət və digər sahələrdə fəaliyyət göstərən 80-dən çox sahibkar iştirak edib. Belarus Ticarət və Sənaye Palatasının sədri Mixail Myatlikov iki ölkə arasında iqtisadi münasibətlərin strateji xarakter daşıdığını, dövlət və hökumət başçılarının, iqtisadi qurumların birgə təşəbbüskarlığı sayəsində hər il əlaqələrin dinamikasının yüksəldiyini bildirib.

### Ticari mübadiləni artırmaq üçün imkanlar böyükdür

AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev isə qeyd edib ki, Azərbaycan və Belarus arasında iqtisadi-ticarət əlaqələr yüksələn xətlə inkişaf edir, tərəflərin birgə işgüzar dialoqunun və təşəbbüskarlığının genişlənməsi sayəsində əmtəə dövriyyələri artır. Qeyd edək ki, iki ölkə arasında ticarət dövriyyəsi ötən il 500 milyon dollara yaxınlaşıb, cari ilin ilk rübündə isə dövriyyə 101 milyon dolları ötüb. Azərbaycanın Belarusa ixracı 82 faiz artaraq 17 milyon dollara çatıb. Bu o deməkdir ki, respublikamız bu ölkənin bazarında qeyri-neft ixracatçısı kimi mövqeyini möhkəmləndirir. Mal mübadiləsinin böyüməsində Belarusda Azərbaycan fəaliyyət göstərən Ticarət Evi də əhəmiyyətli rol oynayır. Ticarət Evi Azərbaycan istehsalı olan spirtli içkilərin, o cümlədən şərabların təşviqində fəal iştirak edir, eyni zamanda, digər yeyinti mallarının ixracının stimullaşmasına çalışır.

Bütün bunlara baxmayaraq, tərəflər əmtəə dövriyyəsinin artırılması üçün potensialın daha böyük olduğu qənaətindədir. Post-sovet ölkələri arasında Azərbaycanın dördüncü ən böyük xarici ticarət partnyoru olan Belarus iqtisadi dövriyyəni artırmaq üçün öz imkanlarını səfərbər edəcəyini bəyan edir. Belarusun Ticarət Sənaye Palatasının sədri Mixail Myatlikovun sözlərinə görə, Azərbaycan Belarusun ticarət tərəfdaşları sırasında 11-ci pillədən 7-yə yüksəlib. Ölkəmizə əsasən dəmiryol vaqonları, kənd təsərrüfatı texnikası, traktorlar və yük maşınları, ağac emalı məhsulları, süd və ət məhsulları, dərmanlar və neft məhsulları tədarük edən Belarus bu bazarın mal çeşidlərini artırmaq üçün partyor şirkətlərlə intensiv müzakirələr davam etdiriləcək. Eyni zamanda, Belarusa neft-kimya məhsulları, spirtli içkilər, fındıq, elektrik transformatorları, şirələr, meyvə və parçaları ixrac edən Azərbaycan dövriyyənin artırılması istiqamətində ticari təşviqləri gücləndirmək niyyətindədir.

### Birgə biznes layihələri icra olunacaq

İki ölkənin biznes icması arasında da birgə layihələr icra etmək üçün yaxşı imkanlar mövcuddur. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun sözlərinə görə, sahibkarlar arasında birbaşa əlaqələri genişləndirmək üçün dəstəkləyici addımlar atılması nəzərdə tutulur. Hazırda Belarusda Azərbaycan kapitalı ilə 156 şirkət fəaliyyət göstərir ki, onlar da ölkənin müxtəlif regionlarında istehsal sahələri yaradıblar. Həmin şirkətlərin ticarət zəncirinin artırılmasında fəallığının artırılması əsas prioritetlərdən biridir. Həmçinin, belaruslu iş adamları da Azərbaycanda istehsal və emal müəssisələri qurmaq niyyətindədirlər. “Beltamojservis” şirkətinin logistika ofisinin direktoru Marina Belousova bildirib ki, ölkəsi əsasən aqrar məhsullar istehsal edir və bu baxımdan kənd təsərrüfatı sahəsində daha sıx əməkdaşlıq əlaqələri qurmaq və qarşılıqlı sərmayənin həcmini artırmaq mümkündür. Azərbaycanda xarici sərmayə üçün münbit imkanların mövcudluğunu qeyd edən Belarusun Universal Əmtəə Birjasının sədri Aleksandr Osmolovski isə ikitərəfli biznes dialoqlarının şaxələnməsi üçün ölkəsinin müxtəlif stimullaşdırıcı alətlərdən istifadə edəcəyini vurğulayıb.

Qeyd edək ki, biznes-forum çərçivəsində iki ölkənin şirkətləri arasında kimya sənayesi, qida, tekstil, mebel və təhsil kimi sahələri əhatə edən 6 sənəd




imzalanıb. Həmin sənədlər qarşılıqlı ticarətin genişlənməsi, texnologiya mübadiləsi və istehsalın lokallaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Forumda Belarus Universal Əmtəə Birjası ilə Azərbaycanın Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) arasında imzalanan qarşılıqlı Anlaşma Memorandumuna əsasən, Belarusun Universal Əmtəə Birjasında Azərbaycan şirkətlərinin təmsilçiliyi ilə bağlı broker sertifikatları veriləcək.

### Yeni iqtisadi ünvan azad edilmiş ərazilərdir

Azərbaycanla Belarus əməkdaşlığı sənaye sahəsində məhsuldar perspektivlər vəd edir. Hər iki ölkənin sənaye potensialı böyükdür və daha sıx əməkdaşlıq üçün niyyətlər elan edilib. Belə ki, tərəflər arasında iqtisadi əməkdaşlığın yeni gündəliyində əsas ana xətt azad olunmuş ərazilərdə quruculuq və iqtisadi inkişaf proqramlarında yer almaqdır. Belarusun sənaye şirkətləri Qarabağ və Şərqi Zəngəzurda təmsil olunmaq maraqlarını gizlətmir, eləcə də zəngin mineral ehtiyatlara və torpaq resurslarına malik bu bölgədə aqrar layihələrin icrasında iştirak etmək istəyir. MDB regionunda kənd təsərrüfatı texnikasının istehsalı, maşın və avadanlıqların tədarükü sahəsində liderlərindən biri olan Belarus azad ərazilərdə ağır sənaye texnikalarının istehsalı şəbəkəsi qurmaq üçün hökumətə müraciət edib. Eləcə də heyvandarlığın inkişafı ilə bağlı belaruslu iş adamlarının təklifləri dəyərləndirilir. Cins mal-qara üzrə MDB-nin lideri olan Belarusun heyvandarlıq müəssisələri yaratması bu bölgə üçün xüsusi önəm daşıya bilər. Bu, həmin bölgədə və Azərbaycanda süd məhsullarına, iribuynuzlu mal-qara ətinə tələbatı tam təmin etmək üçün də xüsusi əhəmiyyət kəsb edir və Azərbaycanın ərzaq təhlükəsizliyinin möhkəmlənməsində dərin töhfə verə bilər. Eləcə də Belarus təcrübəsi üzrə Qarabağda aqroşəhərciklərin salınması böyük iş yerləri, məşğulluq proqramlarının gerçəkləşməsi deməkdir.

Ümumiyyətlə, Belarus Respublikasının Azərbaycanla iqtisadi bağlantılarında yeni səhifə açmaq üçün təklif və planları olduqca geniş və çoxşaxəlidir. Biznes-forumda aparılan müzakirələr zamanı gələcək əlaqələrin yeni xəritəsinin cızılması, habelə razılaşdırılmış yeni sazişlər nəzərdə tutulan hədəflərə çatmağa imkan verəcək.

***ELBRUS CƏFƏRLİ***

## Fikrət Sadıqov-85

# Ömrünü Azərbaycan kimya sənayesinin inkişafına həsr edən İNSAN

*Çoxdan idi ki, məqalə yazmırdım: sanki yadırğamışdım. Ancaq biləndə ki, bu yaxınlarda çoxlarının, eləcə də mənim də bir sadə, təvazökar, xeyirxah insan və savadlı mütəxəssis kimi tanıdığım Fikrət Sadıqovun 85 yaşı tamam olur, onda vaxt itirmədən sözün əsil mənasında bu gözəl şəxslə görüşüb müsahibə götürməyi qərara aldım. Zəngləşib onunla öz bağ evində görüşdük.*

**- Fikrət müəllim, Siz 28 aprel 1940-cı ildə Ordubad şəhərində qulluqçu ailəsində anadan olmusunuz. Yəqin ki, orta təhsilinizi Ordubadda almısınız və əmək fəaliyyətinizə orada başlamısınız...**

- Elədir ki, var. Mən 1948-ci ilin sentyabrında Ordubad şəhərindəki Məmməd Tağı Sidqi adına 1 saylı orta məktəbin I sinfinə getmişəm və 1957-ci ildə həmin məktəbin IX sinfini bitirmişəm. Daha sonra işləyə-işləyə həmin məktəbin nəzdindəki fəhlə-gənclər məktəbinin X sinfini bitirmişəm. Əmək fəaliyyətimə 1956-cı ilin tətil günlərində Ordubad Konserv Zavodunda başlamışam və 1958-ci ilədək orta təhsilimi davam etdirə-etdirə həm bu zavodda, həm də Ordubad İpək Fabrikində fəhlə kimi çalışmışam. 1958-ci ildən isə Ordubad Rayon Təmir-Tikinti İdarəsində fəhlə işləmişəm. Sonra isə ali məktəbə daxil olmaq məqsədilə Bakıya gəlmişəm və 1959-cu ilin may ayından sentyabr ayına kimi Siyəzən Neft Trestində torna dəzgahının alətçisi işləmişəm.

**- Sizdə kimya ixtisası üzrə ali təhsil almaq arzusu haradan qaynaqlanırdı?**

- Mən məktəb illərində həmyerlim, dünya şöhrətli kimyaçı alim-akademik Yusif Məmmədəliyevin pərəstişkarı idim və ona görə də öz qarşıma kimya üzrə ali təhsil almaq məqsədini qoymuşdum. Atalar demişkən: “Niyyətin hara, mənzilin də ora”. Ona görə də 1959-cu ilin yayında sənədlərimi o vaxtki S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə təqdim etdim, qəbul imtahanlarından əla və yaxşı qiymətlər alaraq bu universitetə qəbul olundum və 1963-cü ilə kimi həmin fakültədə əyani təhsil aldım.

**- Bəs sonra?**

- 1963-1965-ci illərdə universitetdə əyani təhsilimi davam etdirməklə yanaşı, həm də növbəlilik əsasında Sumqayıt Sintetik Kauçuk Zavodundakı stirol sexində aparatçı, baş aparatçı və növbə rəisi vəzifəsində işlədim.

1965-ci ildə Azərbaycan Dövlət Universitetində ali təhsilimi başa vurduqdan sonra məni işləmək üçün təyinatla o vaxtlar olan Sumqayıt Neft-Kimya Kombinatına göndərdilər və mən orada tikilməkdə olan epoksid qətranları sexinə texnoloq vəzifəsinə təyin olundum və bu vəzifədə 1969-cu ilə qədər işlədim. Həmin il bu kombinatın əsasında Üzvi Məhsullar Zavodu təşkil edildi və mən 1969-cu ildə o zavodda 3 saylı polietilen istehsalat rəisinin müavini - istehsalatın baş texnoloqu vəzifəsinə təyin olundum və 1 il bu vəzifədə çalışdım. Əvvəllər işlədiyim epoksid qətranları sexində istehsal zəif olduğu üçün məni yenidən həmin sexə rəis vəzifəsinə təyin etdilər. Sözügedən sexdə biz istehsalı normal vəziyyətə gətirdikdən sonra 1971-ci ildə mənə həmin zavodun istehsalat-texniki şöbəsinin rəis müavini vəzifəsi təklif olunanda etiraz etmədim və 1 il həmin vəzifəni icra etdim. 1972-ci ilin əvvəllərində bu zavodda poliizobutelen sexini işə salmaq üçün məni o sexə rəis vəzifəsinə təyin etdilər və o vəzifədə ilin axırına kimi işlədim. Həmin ilin axırında isə mən bu zavodun mərkəzi laboratoriyasının rəis müavini vəzifəsinə təyin olundum və 1973-cü ilin sonuna kimi bu vəzifədə çalışdım.

1973-cü ilin axırlarında mən Sumqayıt Səthi Aktiv Maddələr Zavodunda baş mühəndis vəzifəsinə təyin olundum və 1975-ci ilin sonuna kimi bu vəzifədə işlədim. 1975-ci ilin sentyabr ayında məni Sumqayıt Üzvi Sintez Zavodunun texniki-istehsalat şöbəsinin rəisi vəzifəsinə təyin etdilər, 1 il sonra isə mən həmin zavodun baş mühəndisi vəzifəsinə təyin olundum və bu vəzifədə 1981-ci ilin oktyabr ayına kimi çalışdım.

**- Fikrət müəllim, tez-tez vəzifələrinizin dəyişilməsinin və vəzifə pillələrində sürətlə irəliləyə çəkilməyinizin səbəbi nə idi?**

- Təvazökarlıqdan uzaq olsa da qeyd etməliyəm ki, hələ gənc yaşlarında əmək fəaliyyətinə başlayandan mənə tapşırılan işə çox məsuliyyətlə yanaşmışam və çalışmışam ki, həmişə vəzifəmin öhdəsindən vaxtında və layqincə gəlim. Mütəxəssis kimi işə başlayanda mən bu keyfiyyətləri özümdə daha çox aşılamışam, biliyimi və savadımı daim artırmışam və həmişə mənə tapşırılan işə yaradıcı münasibət göstərmişəm. Yəqin ki, müxtəlif məsul vəzifələrə təyin olunanda rəhbərlik tərəfindən bütün bu keyfiyyətlər nəzərə alınıb.

**- .... Nəhayət , 1981-ci ilin oktyabr ayında Sizi o vaxtkı SSRİ Kimya Sənayesi nazirinin əmri ilə Sumqayıt Kimya Sənaye İstehsalat Birliyinin direktoru vəzifəsinə təyin etdilər. Bu, necə baş verdi?**

- Bildiyiniz kimi, SSRİ dövründə Sumqayıtda fəaliyyət göstərən zavodların əksəriyyəti SSRİ Kimya Sənayesi Nazirliyinə tabe idi. Moskvaya xidməti ezamiyyələrim vaxtı mən həmin nazirliyin məsul işçiləri ilə tez-tez görüşür, bizim problemlərimizlə bağlı məsələləri birgə müzakirə edib onları həll edirdik. Orada məni yaxşı tanıyırdılar, bir mütəxəssis və məsul şəxs kimi mənə hörmət edirdilər, təklif və rəylərim həmin nazirlik tərəfindən həmişə müsbət qarşılanırdı.

O vaxtlar Ulu Öndərimiz Heydər Əliyev Azərbaycana rəhbərlik edirdi, tez-tez Sumqayıta gəlirdi və bizim zavodlarda olurdu. Ona görə də mənimlə və fəaliyyətimlə tanış idi. Sumqayıt Şəhər Partiya Komitəsi Sumqayıt Kimya Sənaye İstehsalat Birliyinin direktoru vəzifəsinə təyin olunmağımı məsləhət görmüşdü. Həmin vəzifəyə təyin olunmağım üçün mən mütləq Moskvaya gedib Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin müvafiq şöbəsindən və SSRİ Kimya Sənayesi Nazirliyinin aidiyyatı şöbələrindən müsahibələrdən keçməliydim. Mən elə də etdim və Moskvaya gedib həmin prosedurlardan keçdim. Mənim bu vəzifəyə namizədliyim həm də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Büro iclasında müzakirə olunmalıydı. Həmin büro iclası 1981-ci ilin oktyabr ayında keçirildi və bu iclası Ulu Öndərimiz Heydər Əliyev apardı. İclasda büro üzvləri mənim namizədliyimin təsdiq olunması barədə müsbət qərar qəbul etdi. Beləliklə, mən 1981-ci ilin oktyabr ayında əvvəlcə Sumqayıt Kimya Sənaye İstehsalat Birliyinin direktoru vəzifəsinə, 1988-ci ildə isə Baş direktoru vəzifəsinə təyin olundum və bu vəzifədə 1992-ci ilin payızına kimi işlədim.

1992-ci ilin payızında “Azərkimya” Dövlət Şirkəti yaradıldı, mən həmin şirkətin Prezidenti vəzifəsinə təyin olundum və bu vəzifədə 2005-ci ilin payızına qədər - pensiyaya çıxana kimi işlədim.




**- İstər mütəxəssis, istərsə də məsul vəzifələrdə işlədiyiniz bu müddət ərzində hansı nailiyyətlərə nail oldunuz və hansı yeniliklərə imza atdınız?**

- Tale elə gətirib ki, işlədiyim bu müddət ərzində o vaxtkı SSRİ məkanında kimya sənayesi sahəsində bir çox yeniliklərin və nailiyyətlərin ilk müəlliflərindən və iştirakçılarından biri olmaq mənə nəsib olmuşdur. Belə ki, 1965-1968-ci illərdə o vaxtkı SSRİ-də birinci olaraq epoksid qətranları istehsal edilən sexin tikilib işə salınmasına və fəaliyyətinə rəhbərlik etmişəm. Yenə də SSRİ-də ilk dəfə olaraq 1968-1970-ci illərdə epi-xlorhidirin istehsalı kompleksinin işə salınıb mənimsənilməsində bilavasitə iştirak və ona rəhbərlik etmişəm. Eləcə də yenə SSRİ-də birinci olaraq 1972-1973-cü illərdə sürtkü yağlarına əlavə edilən poliizobutilen məhsulunun istehsalı kompleksinin işə salınmasına və tam mənimsənilməsinə rəhbərlik etmişəm. 1973-1975-ci illərdə məşhur Sumqayıt Məişət Kimyası Zavodunun tam layihə gücünə çatdırılmasında və istehsal olunan məhsulların keyfiyyətinin yüksəldilməsində bilavasitə iştirak etmiş və bu işlərə rəhbərlik etmişəm. Bundan başqa yenə də SSRİ-də ilk dəfə olaraq 1975-1976-cı illərdə Sumqayıt Üzvi Sintez İstehsalat Birliyində sadə poliefirlər maddəsinin istehsal edən sexin işə salınmasında və tam layihə gücünə çatdırılmasında bilavasitə iştirak etmişəm və bu işə rəhbərlik etmişəm.

Yeri gəlmişkən onu da qeyd etmək yerinə düşər ki, SSRİ dövründə kimya sənayesində çox böyük ehtiyac duyulan benzol maddəsinin istehsalının yüksəldilməsi işində böyük xidmətlərimizə görə mənə və bir qrup mütəxəssisə 1980-ci ildə Azərbaycan SSR-nin Dövlət mükafatı verilmişdir.

1980-1983-cü illərdə o vaxt SSRİ-də çox böyük ehtiyac duyulan xlor və qələvi istehsalı üçün müvafiq kompleksin tikilib istifadəyə verilməsində də bilavasitə iştirak etmişəm və bu işə rəhbərlik etmişəm. 1980-1984-cü illərdə 100%-lik alkilbenzol istehsal kompleksinin tikilib istifadəyə verilməsinə də mən rəhbərlik etmişəm. 1983-1984-cü illərdə o vaxtlar SSRİ-də kauçuk istehsalında əsas xammallardan biri hesab olunan və Sumqayıt Kauçuk Zavoduna kənardan alınıb gətirilən butadienin istehsalının başlanılmasına və bu işin tam istehsal gücünə çatdırılmasına bilavasitə rəhbərlik etmişəm.

1981-1985-ci illərdə rəhbərlik etdiyim İstehsalat Birliyində SSRİ-də o vaxt istehsal olunan yuyucu maddələrin istehsalında əsas xammallardan biri olan sulfonol maddəsinin istehsalının artırılmasına və keyfiyyətinin yüksəldilməsinə bilavasitə rəhbərlik etmişəm. Yeri gəlmişkən onu da qeyd edim ki, o vaxtlar SSRİ-də tələb olunan sulfonolun 96 faizini Sumqayıt Kimya Sənaye İstehsalat Birliyi istehsal edirdi. 1983-1985-ci illərdə isə o zaman SSRİ-də çox böyük ehtiyac duyulan aliminium-xloridin Sumqayıtda istehsalının yenidən qurulmasına və istehsalına rəhbərlik etmişəm.

**-Yəqin ki, belə möhtəşəm işləri yerinə yetirəndən sonra Sizin rəhbəri olduğunuz İstehsalat Birliyinin gəlirləri də xeyli artmış olmalı idi. Bəs əldə olunan həmin gəlirlər hansı sahələrə yönəldilirdi?**

- O vaxtlar əldə etdiyimiz gəlirlərin xeyli hissəsi təbii ki, əməkdaşlarımızın sosial və məişət problemlərinin həllinə və istehsalın genişləndirilməsinə sərf olunurdu. Bundan başqa həmin gəlirlərin hesabına Sumqayıt şəhərində bir sıra mədəniyyət və digər obyektlər tikildi: kimyaçıların mədəniyyət sarayı, şəhərin mərkəzi məscidi, 10-dan çox xeyir-şər evləri tikilib şəhər əhalisinin istifadəsinə verilmişdir. Eləcə də şəhərdəki bir çox digər tikililəri buna misal göstərmək olar. Bundan başqa Bakı Dövlət Konservatoriyası rektorunun müraciətinə əsasən onlar üçün çox qiymətli royal, həmçinin keçmiş Azərbaycan Respublikasının Ali Soveti rəhbərliyinin müraciətinə əsasən deputatlara səsvermə sisteminin alınması üçün bizim tərəfimizdən vəsait ayrıldı. Sonra isə Respublika Onkoloji Mərkəzinin rəhbərliyinin mənə şəxsi müraciəti əsasında Mərkəz çox lazımlı və qiymətli xaricdə istehsal olunan avadanlıq alınmışdır. Bizə o vaxtlar müraciət edən çoxlu sayda alimlərə, ziyalılara, eləcə də sadə insanlara tərəfimizdən xeyli miqdarda maddi dəstək göstərilmişdir.

**- Bəs Sizin bu fəaliyyətiniz və əməyiniz necə qiymətləndirilib?**

- Əməyim və fəaliyyətim dövlət tərəfindən lazımınca qiymətləndirilib. Belə ki, yuxarıda qeyd etdiyim kimi mənə və bir qrup mütəxəssisə 1980-ci ildə Azərbaycan SSR-nin Dövət mükafatı verilmişdir. 1986-cı ildə isə mən “Qırmızı Əmək Bayrağı” ordeni ilə təltif edilmişəm. 1989 və 1990-cı illərdə mən iki dəfə “SSRİ-nin Fəxri kimyaçısı” adını almışam. Sumqayıtdakı “EP-300” zavodunun yenidən qurulması və bərpası işində göstərdiyim xidmətlərimə görə isə 1993-cü ildə mənə “Azərbaycan Respublikasının əməkdar mühəndisi” fəxri adı verilmişdir.

Bundan başqa müxtəlif illərdə mən xeyli sayda fəxri fərmanlarla, diplomlarla təltif olunmuşam və digər qiymətli hədiyyələrlə mükafatlandırılmışam.

**- Siz həm də Azərbaycan Respublikasının Ali Sovetinin və Milli Məclisin deputatı olmusunuz...**

- Bəli, mən 1991-1995-ci illərdə Azərbaycan Respublikasının Ali Sovetinin deputatı, 1995-2000 və 2000-2005-ci illərdə iki çağırış Milli Məclisin deputatı olmuşam. O vaxtkı Ali Sovetin deputatı olanda bir çox qanunların qəbul edilməsində fəal iştirak etmişəm, iki çağırış Milli Məclisin deputatı olanda isə İntizam Komissiyasına rəhbərlik etmişəm. Mən deputat olan vaxt hər həftə seçicilərimlə görüş keçirmişəm və öz səlahiyyətlərim çərçivəsində problemlərinin həllinə dəstək göstərmişəm.

**- Fikrət müəllim, Siz texnika elmləri doktoru, professorsunuz və həm də uzun illər elmi fəaliyyətlə məşğul olmusunuz. Bu barədə nə deyə bilərsiniz?**

- Mən 1988-ci ildə Moskva şəhərində namizədlik dissertasiya işimi müdafiə edərək “texnika elmləri namizədi” alimlik dərəcəsi adını almışam. 1995-ci ildə yenə də mən Moskvada doktorluq dissertasiya işimi uğurla müdafiə edib Rusiya Federasiyası Ali Attestasiya Komissiyasının 14 iyul 1995-ci il tarixli Qərarına əsasən “texnika elmləri doktoru” alimlik dərəcəsi adına layiq görülmüşəm. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 30 may 1997-ci il tarixli Qərarına əsasən təkrar attestasiyadan keçdiyimə görə mənə yenidən “texnika elmləri doktoru” alimlik dərəcəsi adı verilmişdir. 21 may 2004-cü il tarixdə isə yenə də həmin komissiya tərəfindən mənə “professor” elmi adı verilmişdir. 2009-cu ildən 2025-ci ilədək mən AMEA-nın M.F.Nağıyev adına Kimya Problemləri İnstitutunda (hazırda bu institut Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu adlanır) qrup rəhbəri və laboratoriya müdiri vəzifələrində işləmişəm. Respublikada və xarici ölkələrdə özümün və həmmüəlliflərlə birgə çap olunmuş 120 elmi işimiz və 9 tədris və metodiki işimiz vardır. Bundan başqa mən həmmüəliflərlə birgə 87 müəlliflik şəhadətnaməsi və patent almışıq.

**- Yəqin ki, Sizin həyatda yaxın dostlarınız olub və indi də var?!**

- Mən həyatda kinorejissor Eldar Quliyevlə, xalq artisti Həsənağa Turabovla, akademiklər Musa Rüstəmovla, Toğrul Şahtaxtinski ilə və Ayar Əfəndiyevlə yaxın dost olmuşuq. Ona görə “olmuşuq” deyirəm ki, onlar artıq bu dünyadan köçüblər və haqq dünyasındadırlar. Hazırda isə mən teatrşünas İlham Rəhimli ilə dostluq edirəm.

**- Siz hazırda pensiyadasınız və həm də yəqin ki, yaradıcı əməklə də məşğul olursunuz...**

- Hazırda memuar yazıram və Azərbaycan kimya sənayesinin tarixinə, inkişaf mərhələlərinə, bugünkü vəziyyətinə və perspektivlərinə dair monoqrafiya üzərində işləyirəm. İnşallah yaxın zamanlarda onları tamamlayıb nəşr etdirmək istəyirəm.

**- Fikrət müəllim, Sizi geniş oxucu kütləsi və öz adımdan 85 illik yübileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı və yeni-yeni uğurlar arzulayırıq!**

- Çox sağ olun!

**Söhbətləşdi:**
**Yasin Azərtürk**

# Vaşinqtonla Ankara arasında telefon diplomatiyası

## Tramp Ərdoğanla işləməyi səbirsizliklə gözləyir

Bu günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Ağ Evin rəhbəri Donald Tramp arasında baş tutan telefon danışığı dünyanın əsas gündəm mövzularından birinə çevrilib. Telefon danışığında aparılan müzakirələrin spektri kifayət qədər geniş olub - liderlər həm ikitərəfli münasibətlərin perspektivləri, həm də regional və qlobal miqyasda izlənilən proseslərə bağlı ölkələrinin mövqelərini diqqətə çatdırıblar. Telefon danışığında prezidentlər bir-birini qarşılıqlı səfərlərə dəvət ediblər.

### ABŞ Türkiyəni seçir

Şübhəsiz ki, dünyanın ayrı-ayrı regionlarında gərginliklər yaşandığı, xüsusilə də hər iki dövlətin maraq dairəsində olan Yaxın Şərqdə və Şərqi Avropada müharibələrin getdiyi bir dönəmdə iki liderin telefon danışığı aparması təsadüfi deyil. Belə görünür ki, ciddi narahatlıq doğuran geosiyasi vəziyyət prezidentlərin bir-birinin mövqelərini öyrənmələrinə və hansısa məsələlərdə əməkdaşlığın, koordinasiyalı fəaliyyətlərin mümkün olub-olmadığını dəqiqləşdirmələrinə zərurət yarandığı reallığını otaya qoyub. Burada Amerika Birləşmiş Ştatlarında (ABŞ) yeni seçilmiş Prezident Donald Tramp vəzifəsinin icrasına başladıqdan sonra Vaşinqtonun xarici siyasət kursunda bir sıra istiqamətlərin önə çəkildiyini də ayrıca qeyd etmək lazımdır. O cümlədən Ağ Evin yeni sahibinin Ankara ilə siyasi dialoqu intensivləşdirməkdə maraqlı olduğu diqqət çəkir. Burada iki məqamı vurğulaya bilərik.

- Birinci məqam Türkiyə Prezidentinin yüksək liderlik keyfiyyətləri ilə bağlıdır. Dünya birliyi dəfələrlə onun bir sıra regional və qlobal məsələlərdə ədalət mövqeyindən çıxış etdiyinin və prinsipiallıq göstərdiyinin şahidi olub. Xatırlayaq ki, D.Tramp prezident seçildikdən sonra R.T.Ərdoğan barəsində bir neçə dəfə müsbət fikirlər ifadə edib, Türkiyə Prezidenti ilə münasibətlərinin yüksək səviyyədə olmasını məmnunluqla dilə gətirib, onu "çətin və ağıllı lider" kimi səciyyələndirib.

- İkinci məqam isə bütövlükdə qardaş Türkiyənin genişlənən imkanlarından, o cümlədən də artan hərbi potensialı sayəsində qlobal güc mərkəzinə çevrilməsindən qaynaqlanır. Şimali Atlantika Alyansı (NATO) ilə yollarını ayırmağın anonsunu edən D.Tramp güclü orduya malik Türkiyənin timsalında özünə Avropa İttifaqından daha güvənli bir müttəfiq tapmaq istəyir.

D.Trampın bir qədər bundan əvvəl C.Bayden dönəmində dalana dirənmiş F-35 danışıqlarına dönüş etməsi Vaşinqtonla Ankara arasında buzların əriməsi erasının başladığının göstəricisidir. Verilən məlumatlara görə D.Tramp Türkiyəni yenidən F-35 proqramına daxil etmək və Ankaranın artıq pulunu ödədiyi qırıcıları təhvil vermək istəyir. Bu məqsədlə komandasına Türkiyəyə qarşı sanksiyaların həm hüquqi, həm də texniki baxımdan necə ləğv oluna biləcəyi ilə bağlı araşdırma aparmağı tapşırıb.



Bundan başqa, müəyyən məsələlərdə fikir ayrılığının hələ də qalmasına rəğmən, Ağ Evin rəhbərliyi Türkiyənin Yaxın Şərqdə izlənilən proseslərdə rolunu yüksək dəyərləndirir. D.Tramp birmənalı şəkildə bildirib ki, Suriya probleminin həllinin açarı məhz Türkiyədədir.

Bütün bunlar Ağ Evdə reallığın, Türkiyənin artan gücünün düzgün dəyərləndirildiyinin təsdiqidir. O qənaət hasil olur ki, ABŞ rəhbərliyi köhnə və yeni tərəfdaşları sırasında Türkiyəyə xüsusi önəm verir və Ankaranı seçir.

### Ankara nə istəyir?

Bundan əvvəl Vaşinqtonla Ankara arasında münasibətlər məhz Bayden administrasiyasının riyakarlığı və məsuliyyətsizliyi səbəbindən korlanmışdı. D.Tramp administrasiyası isə münasibətlərdə yeni dönəmə başlamağın zəruriliyini qəbul edir. Bəs qardaş Türkiyənin Ağ Evdən istəyi nədən ibarətdir? Telefon danışığında Türkiyə dövlətinin başçısı ABŞ Prezidentini ölkəsinin ikitərəfli əməkdaşlığın, o cümlədən hərbi-sənaye kompleksinin genişləndirilməsi istiqamətində yeni addımlara hazır olduğuna əmin edib.

O, Donald Trampın dünyada müharibə və münaqişələrə son qoymaq təşəbbüslərini dəstəklədiyini bildirib, xüsusən də Vaşinqtonun İranla dialoq və Rusiya ilə Ukrayna arasında müharibəyə son qoyulması məsələsində səylərini alqışlayıb.

Türkiyə dövlətinin başçısı Yaxın Şərqdəki vəziyyətə də diqqət çəkərək Qəzza zolağındakı humanitar böhranın miqyasını "dəhşətli" adlandırıb.

Rəcəb Tayyib Ərdoğan fələstinlilərə humanitar yardımın fasiləsiz çatdırılmasının vacibliyini vurğulayıb və Ankaranın əməkdaşlığa, atəşkəsə və uzunmüddətli sülhün təmin edilməsinə dair atılan addımları dəstəkləməyə hazır olduğunu qeyd edib.

Suriyadakı vəziyyətə toxunan Türkiyə Prezidenti Ankaranın qonşu ölkədə ərazi bütövlüyü və sabitliyi dəstəkləmək əzmini Ağ Evin rəhbərinin diqqətinə çatdırıb, ABŞ-ın Dəməşqə qarşı sanksiyalarının yumşaldılmasının Suriyadakı vəziyyətə müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib. "Sabit Suriya həm bölgədə, həm də bütün planetdə sülhə töhfə verəcək", - deyə o qeyd edib.

### Tramp məmnundur

Verdiyi açıqlamalardan görünür ki, D.Tramp Türkiyənin dövlət başçısı ilə telefon danışığından məmnundur. ABŞ Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığını çox yaxşı və məhsuldar adlandırıb. Bu barədə Ağ Evin rəhbəri "Truth" sosial şəbəkəsindəki səhifəsində yazıb. "İndicə Türkiyə Prezidenti Ərdoğanla bir çox mövzuda, o cümlədən Rusiya və Ukrayna arasındakı müharibə, Suriya, Qəzza ilə bağlı hər şey haqqında, eləcə də bir çox digər mövzularda çox yaxşı və məhsuldar telefon danışığım oldu", - deyə D.Tramp bildirib.

Amerika lideri Ərdoğandan Türkiyəyə səfər dəvəti aldığını da təsdiqləyib. Fikirlərinə davam edən D.Tramp yazıb: "Eynilə o da Vaşinqtona, Kolumbiya dairəsinə gələcək".

"Rusiya və Ukrayna arasındakı mənasız, lakin ölümcül müharibəyə son qoymaq üzrə Ərdoğanla işləməyi səbirsizliklə gözləyirəm - elə İNDİ!", - deyə Ağ Evin yeni sahibi əlavə edib.

*Mübariz ABDULLAYEV*

# İki pis arasında seçim...

## Ermənistan yol ayrıcında qalıb

İkinci Qrabağ müharibəsindəki ağır kapitulyasiyadan sonra Ermənistanda sonu görünməyən siyasi böhran yaşanır. Hakimiyyətin stabil siyasi kursu yoxdur. Ölkə daxilində müxtəlif xarici güc mərkəzlərinə bağlı olan qruplaşmalar meydana gəlib və onlar aldıqları sifarişlər əsasında Ermənistanı yeni avantüralara çəkmək istəyirlər. Belə görünür ki, bu ölkənin cəmiyyəti, iqtidarla müxalifəti ortaq məxrəcə gətirəcək lideri və ümummilli ideyası yoxdur. Bu günlərdə Ermənistanda baş nazir Nikol Paşinyanın impiçment məsələsi gündəmə gəlib. Ölkə yenidən yol ayrıcındadır...

### "Biz yatmırıq"dan cəmiyyətə oyanış çağırışı

Nikol Paşinyanın istefasının tələb olunması və yaxud onunla bağlı parlamentdə impiçment prosesinə başlanılmasına çağırış edilməsi Ermənistan üçün yeni gündəm deyil. Belə çağırışlar həm müxalifət liderləri, həm də parlament fraksiyalarının təmsilçiləri tərəfindən dəfələrlə səsləndirilib. Bədnam "Keşiş inqilabı" yaddaşlarda N.Paşinyanın hakimiyyətdən uzaqlaşdırılmasını hədəfləyən ən kütləvi hərəkat kimi qalıb. İştirakçıların pulla cəlb edilməsinə rəğmən, bu hərəkat bütün ölkə üzrə genişlənmədi və tezliklə süquta uğradı.

Bu dəfə N.Paşinyanın impiçment məsələsi "Biz yatmırıq" vətəndaş hərəkatı tərəfindən gündəmə daşınıb. Bu, həmçinin "Biz yatmırıq"ın cəmiyyətə bir oyanış çağırışı kimi də dəyərləndirilir. Yerli KİV-in yaydıqları məlumatlara əsasən, "Biz yatmırıq" vətəndaş hərəkatının təşəbbüskarı Edqar Kazaryan parlamentdə baş nazir Paşinyana etimadsızlığın ifadəsi olan impiçment prosesinin uğurlu olacağına əminliyini bildirib. "Məndə belə təəssürat yaranır ki, impiçmentin əleyhinə olanlar onun uğursuzluğundan deyil, uğurundan narahatdırlar. Bu proses mütləq müvəffəqiyyətlə başa çatacaq - bütün rəqibləri məğlub etməklə. Heç kim öz xırda ambisiyalarını, maraqlarını rəhbər tutaraq xalqın iradə və istəyi qarşısında müqavimət göstərə bilməz. Xalq isə Nikol Paşinyanın istefasını istəyir", - deyə Edqar Kazaryan sosial şəbəkədəki səhifəsində yazıb.



Xatırladaq ki, daha əvvəl "Biz yatmırıq" vətəndaş hərəkatının təşəbbüskarları Edqar Kazaryan və Narek Malyan Paşinyana etimadsızlıq təşəbbüsü ilə çıxış edərək parlamentin deputatlarına məktublar göndəriblər.

Öz növbəsində bəzi müxalifət partiyaları da "Biz yatmırıq"dan gələn impiçment çağırışına dəstək veriblər. Məsələn, "Şərəfim var" parlament fraksiyasının təmsilçiləri N.Paşinyanın impiçmenti prosesinə başlamağa hazır olduqlarını bildiriblər. Bu barədə fraksiyanın rəhbəri Ayk Mamidcanyan məlumat verib. O təsdiqləyib ki, hazırda ölkədə hakimiyyətin əvəzlənməsinin ən asan yolu parlamentdə Baş nazirə etimadsızlıq göstərilməsi olardı. A.Mamidcanyan "Şərəfim var" fraksiyanın Baş nazir postuna namizədinin olmadığını etiraf edib. O bildirib ki, fraksiyanın üzvləri heç bir ilkin şərt irəli sürmədən N.Paşinyanı əvəzləyəcək yeni namizədin müzakirələrinə başlamağa hazırdırlar. Parlamentari əlavə edib ki, digər müxalifət fraksiyası olan "Hayastan" bloku sabiq prezident R.Koçaryanın namizədliyini irəli sürəcəyi təqdirdə "Şərəfim var" buna da razılığını verəcək.

### Cəmiyyət ümidsizdir, parlamentdə kvota olmayacaq

Bununla belə, Ermənistanın indiki reallıqları fonunda Baş nazirə etimadsızlıq göstərilməsi prosesinin baş tutacağına inam azdır. Bu, ilk növbədə Ermənistan cəmiyyətinə hakim kəsilən ümidsizliklə bağlıdır. İnsanlar indi yenidən meydanlara çıxan və özlərini az qala qəhrəman kimi təqdim edən köçəryanların əməllərini yaxşı xatırlayırlar. Ümumi qənaət belədir: R.Köçəryanın yenidən hakimiyyətə qayıtmasındansa, N.Paşinyanın vəzifədə qalması daha yaxşıdır. Doğrudur, hazırda baş nazirin reytinqi xarici qüvvələrin dəstəyi ilə hakimiyyətə gəldiyi 2018-ci illə müqayisədə xeyli aşağıdır. Bununla belə, iki pisdən birini seçmək reallığı yaranacağı təqdirdə, cəmiyyətin N.Paşinyana üstünlük verəcəyi də heç kimdə şübhə doğurmur.

Cəmiyyətin əhval-ruhiyyəsi ilə yanaşı, parlamentin tərkibi də N.Paşinyanın lehinə işləyən amillər sırasındadır. Ermənistan qanunvericiliyinə görə, parlamentdə Baş nazirə etimadsızlıq prosesinə başlanılması üçün ilk növbədə onu əvəzləyəcək namizədlər müəyyənləşdirilməlidir. Bundan başqa, parlamentin 107 deputatından ən azı 54-ü impiçment prosesinə başlanılmasına "hə" deməlidir. Hazırda "Hayastan" və "Şərəfim var" fraksiyalarını parlamentdə cəmi 34 deputat təmsil edir. Hakim "Vətəndaş müqaviləsi" partiyası isə parlamentdə 69 mandata sahibdir. Daha dörd deputat müstəqil statusa malikdir. Bu statistika ondan xəbər verir ki, indiki məqamda N.Paşinyanın parlament etimadsızlığı yolu ilə hakimiyyətdən uzaqlaşdırılması real deyil.

Öz növbəsində hakim komandanın təmsilçiləri hakimiyyətlərini davam etdirəcəklərinə əmindirlər. "Ermənistanda parlament seçkiləri bu həftə keçirilərsə, hakim "Vətəndaş müqaviləsi" partiyası 50 faizdən çox səs toplayacaq". Bu fikri ölkə parlamentinin sədri Alen Simonyan səsləndirib."Sorğular da göstərir ki, hakim partiya birinci yerdədir və əhali tərəfindən daha çox dəstəklənir... Əminəm ki, əgər seçkilər bu cümə günü keçirilərsə, "Vətəndaş müqaviləsi" 50 faiz + səs toplayaraq qalib gələcək", - deyə A.Simonyan vurğulayıb.

Onun sözlərinə görə, 2026-cı ildə keçiriləcək parlament seçkilərində hakim partiyaya dəstək böyük ehtimalla daha çox olacaq.

*Mübariz FEYİZLİ*

# Şolts getdi, Merts gəlir...

## Almaniya Fransa ilə üz-üzə gələcək?

Almaniyada yeni koalisiya hökumət qurulur - belə ki, fevralın 23-də keçirilmiş növbədənkənar parlament seçkilərinin qalibi Xristian Birlik Blokunda yer alan sağmərkəzçi partiyalar - Xristian Demokrat İttifaqı (CDU) və Xristian Sosial İttifaqı (CSU) ilə sol-mərkəzçi Sosial Demokrat Partiyası arasında yeni hökumətin formalaşdırılması ilə bağlı koalisiya müqaviləsi imzalanıb. Almaniya KİV-lərinin məlumatında qeyd olunur ki, "Almaniya üçün məsuliyyət" adlı 144 səhifəlik koalisiya müqaviləsini CDU-nun lideri Fridrix Merts, CSU-nun sədri Markus Söder və SPD-nin həmsədrləri Lars Klinqbayl ilə Saskia Eksen imzalayıblar. Qeyd edək ki, bu, Almaniya tarixində sağ-mərkəzçilər və sol-mərkəzçilərdən ibarət beşinci koalisiya hökuməti olacaq. İmzalanma mərasimində Fridrix Merts bəyan edib ki, yeni koalisiyanın hakimiyyəti dövründə Almaniyada mühüm iqtisadi-sosial islahatlar həyata keçiriləcək və Almaniya Avropa İttifaqına əvvəlkindən daha çox töhfə verəcək. Mərasimdə CSU-nun sədri Markus Söder və SPD-nin həmsədri Lars Klinqbayl da çıxış ediblər. Xatırladaq ki, bu il fevralın 23-də Almaniyada keçirilən Bundestaq seçkilərində Xristian Demokrat İttifaqı/Xristian Sosial İttifaqı (CDU/CSU) bloku 28,6 faiz səs toplayaraq qalib gəlib. Ultra-sağçı Almaniya üçün Alternativ partiyası (AfD) 2021-ci il seçkiləri ilə müqayisədə səs payını iki dəfə artıraraq 20,8 faiz səs toplayıb. Demək olar ki, AfD Bundestaqda ikinci böyük partiyaya çevrilib. Sol təmayüllü partiyalar - Sosial Demokrat Partiyası 16,4 faiz, Yaşıllar 11,6 faiz və Sol Partiya 8,8 faiz səs toplayaraq üçüncü, dördüncü və beşinci yerdə qərarlaşıblar.

### I seçki: Mertsə zərbə...

Mayın 6-da Bundestaqda baş tutan səsvermə zamanı Fridrix Merts Almaniyanın növbəti kansleri olmaq üçün tələb olunan səsi toplaya bilməyib. Almaniya qanunvericiliyinə görə, ölkənin kansleri olmaq üçün Bundestaqın 630 üzvündən 316 -sının səsini toplamaq tələb olunur. Merts isə 310 nəfərin etimadını qazanıb. Altı nəfərin səsinin çatmaması Mertsə kansler olmağa imkan verməyib. Maraqlısı budur ki, CDU/CSU-nun və SPD-nin koalisiya hökuməti Bundestaqda 328 mandata sahibdir. "Deutsche Welle" agentliyinin məlumatına görə, Bundestaqda növbəti səsvermə 14 gündən sonra keçiriləcəkdi...

Birinci turdakı məğlubiyyətdən sonra partiyaların parlament fraksiyaları arasında aparılan məsləhətləşmələr nəticəsində ikinci turun da həmin gün (dünən-red.) keçirilməsi qərara alınmışdı.

F.Mertsin Kansler seçilməsi üçün parlamentin 630 deputatından 316-sının səsi tələb olunduğu halda onun lehinə 325 deputat səs verib.

Bundestaq seçkisindən və uğurlu koalisiya danışıqlarından sonra təyin edilmiş Kanslerin parlamentdə səsvermənin birinci turunda uğursuzluğa düçar olması Almaniya tarixində ilk dəfə baş verir.

Almaniya Konstitusiyasının 63-cü maddəsinə əsasən, birinci turda Kansler lazımi səs çoxluğunu toplaya bilmədikdə iki həftə ərzində səsvermənin ikinci turu keçirilməlidir. Bu seçkilərdə də deputatlardan yarıdan çoxunun səsi lazımdır. Zəruri hallarda digər şəxsin namizədliyi irəli sürülə bilər. Əgər həmin vaxt da tələb olunan çoxluq əldə olunmasa, üçüncü tur keçirilir. Üçüncü turda Kanslerin seçilməsi üçün səsvermədə iştirak edən deputatların sadə səs çoxluğu kifayət edir.

Seçkilərdən sonra Kansler Fridrix Merts Almaniya Prezidenti Frank-Valter Ştaynmayer tərəfindən rəsmən bu vəzifəyə təyin ediləcək və parlamentdə and içəcək. Sonra yeni kabinet təsdiqlənəcək və koalisiya hökuməti rəsmən fəaliyyətə başlayacaq.

### Birinci turda Merts niyə qələbə qazana bilməmişdi?

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin siyasi eksperti Sultan Zahidov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Almaniyanın siyasi cəmiyyətində Mertsə münasibət birmənalı deyil. "Həm SPD, həm də öz partiyası - CDU daxilində onun siyasətinə qarşı ciddi narazılıq var. Xatırladım ki, mart ayında Bundestaqda "Borc Əyləci" qanunu ətrafında qızğın müzakirələr aparılırdı. CDU, SPD və Yaşıllar partiyasından olan deputatlar arasında bu qanuna dəyişikliklərlə bağlı fikir ayrılıqları var idi. Bu qanuna görə, gəlirlərdən əldə olunan borcun payı ÜDM-un 0,35 faizdən çox olmamalıdır. Merts bu rəqəmin dəyişdirilməsinə qəti etiraz edirdi və bəyan edirdi ki, o, buna imkan verməyəcək. Amma nəticə etibarı ilə bu rəqəmin dəyişilməsini nəzərdə tutan qanun səsvermədə təsdiqləndi. Bu da Mertsin nüfuzunu bir qədər sarsıtdı. Eyni zamanda SPD daxilində bir qrup şəxs, xüsusilə də gənc kəsim partiyanın CDU ilə koalisiyaya getməsini o qədər də xoş qarşılamayıblar. SPD-nin gənc kəsimi CDU-nun sərt miqrasiya siyasətinə qarşı çıxırlar. Bütün bunlar bu vəziyyətin yaranmasına gətirib çıxardı".



### Avropada nə baş verəcək?

S.Zahidovun sözlərinə görə, Mertsin Kansler seçilməsi ilə Almaniyanın həm daxili, həm də xarici siyasətində, hətta Avropa İttifaqının daxilində ciddi proseslər baş verəcəyi gözlənilir. "Merts CDU/CSU ilə SPD arasında koalisiya hökumətin qurulması ilə bağlı sazişin imzalanma mərasimində bəyan edib ki, onun hakimiyyəti dövründə Almaniya daha da möhkəmlənəcək. O, Almaniyanın Aİ daxilində istər siyasi, istər iqtisadi, istərsə də hərbi-təhlükəsizlik cəhətdən nüfuzunun və əzəmətinin bərqərar olunması istiqamətində addımlar atacaq. Merts Almaniyanı Aİ-də söz sahibinə çevirmək niyyətindədir. Təbii ki, bu da Almaniyanı Fransa ilə üz-üzə gətirəcək".

S.Zahidov vurğulayıb ki, CDU/CSU və SPD-nin koalisiya proqramında miqrasiya ilə bağlı sərt qanunlar əks olunub. "Merkelin hakimiyyəti dövründə CDU miqrasiyaya qarşı bu qədər sərt mövqe sərgiləmirdi. Mertsin CDU-su miqrasiya qanunlarını daha da sərtləşdirib. Bir-

### Miqrasiya siyasəti daha da sərtləşəcək

gə proqramda qeyd olunan miqrasiya qanunlarına görə, sərhədlərə nəzarət daha da gücləndirilməli, vətəndaşlıq almaq üçün üç illik müddət beş illik müddətlə əvəzlənməli, qeyri-qanuni miqrantlar dərhal deportasiya olunmalı və Almaniyadan sığınacaq istəyənlərin bir çoxu ölkə sərhədindən öz ölkəsinə qaytarılmalıdır. Xüsusilə qeyd edim ki, son zamanlar Almaniyada ultra-sağçıların böyük siyasi nüfuz sahibi olmaları sağ-mərkəzçi timsalında CDU-nu həmin qüvvələrin miqrasiya proqramının elementlərini qəbul etməyə məcbur edib. CDU öz seçicilərini itirmək istəmir".

*Yunis ABDULLAYEV*

# Keçmişi indiyə çağırmaq

## Marsel Prustun "İtkin zamanın sorağında" epopeyası haqqında

**əvvəli ötən sayımızda**

Nəsrdə modernizmdən söhbət gedəndə ilk yada düşən imzalar Marsel Prust, Ceyms Coys, bir də Frans Kafka olur. Onların ardınca prosesə eyni ədəbi nəslə mənsub, sonralar hər biri dünya şöhrəti qazanacaq Virciniya Vulf, Tomas Mann, Herman Hesse, Robert Muzil, Herman Brox kimi yazıçılar da qoşulub. Ortada olan ədəbi məhsulları bir yana qoyub, əvvəlkindən köklü şəkildə fərqlənən yeni roman, yeni üslub yaratmağa göstərilən cəhdi əsas götürsək, onda yəqin Prustdan danışmağa birinci başlamalıyıq. Onun baş vurduğu söz dəryasından sağ-salamat üzüb çıxmaq həqiqətən ağlasığmaz ədəbi igidlik, onun çiyninə götürdüyü iş misilsiz ədəbi cəsarət örnəyidir. Bunu da nəzərə alsaq ki, Prust ta uşaqlığından əlacsız astma xəstəliyindən əziyyət çəkib, o səbəbdən dünyanın çox zövqü-səfasından özünü məhrum eləyib, bəzən günlər, həftələrcə qapalı məkandan başını çıxara bilməyib, üstəlik, təqribən 4000 səhifəlik nəhəng əsərini yazmağa da təxminən 40 yaşında başlayıb, onun çəkdiyi titanik zəhmətin miqyasını, sanballı təsəvvürə gətirmək çətin olmaz.

Qəribədir ki, mühiti onun nəsə yazmalı olduğunu (bəlkə də nəsə yazmağa borclu olduğunu) xeyli əvvəldən bilirdi, kübar cəmiyyət, ədəbi camiə ondan yeni sənət möcüzəsi gözləyirdi, dost-tanışı tez-tez ondan yazmağa nə vaxt başlayacağını soruşurdu. Elə bil nə yazılacağını, necə yazılacağını yüz min il qabaqdan bilən ilahi qüvvə onların hamısını bəri başdan müjdələmişdi, qalırdı diz qatlayıb o kitabları yazıb gün üzünə çıxarmaq. Hələ dişə vurulası bir əsər yazmasa da, Prust öz mühitində ciddi yazıçı, sənət bilicisi kimi tanınırdı. Bəlkə Marsel özü də yer planetindəki missiyasını yerinə yetirməmiş ona zaval dəyməyəcəyini bildiyindən görəcəyi işi sabaha saxlamaqla fiziki ömrünü uzadırdı...

Ola da bilsin, qırx yaşına qədər roman onun içində yetişib yazılmaq həddinə çatmamışdı, çünki belə bir əsəri yazmaq üçün yetkin ömür yaşamalı, dolğun təcrübə qazanmalısan. Ancaq indikindən fərqli olaraq qırx yaş o vaxtlar qocalığın astanası sayılırdı, bir çox böyük sənətkar ya o yaşa çatmamış, ya da elə o yaşlarda canını fələyə təhvil vermişdi. Bütün bunlar göstərir ki, Berqsonun dediyi kimi, hər kəs öz zamanıyla, öz zamanında yaşayır, "müddəti" qurtaranda insan da bitir.

***

"İtkin zamanın sorağında" epopeyasını Berqsonun zaman konsepsiyasına illüstrasiya da saya bilərik. Müəllif özü də uzaq qohumunun fəlsəfi ideyalarından təsirlənib ruhlandığını danmır, hələ bəlkə binasını həmin bünövrə üstündə ucaltmaqdan qürurlanırdı (hərçənd qohumu onun yaratdığı ədəbi möcüzə haqqında elə bir gurultulu söz, tərif-filan söyləməmişdi). Düzdür, onu da deyirdi ki, əsərinin fəlsəfi platforması yalnız Berqsonun nəzəriyyəsiylə məhdudlaşmır - daha doğrusu budur ki, onun romanı həcmcə çox geniş olsa da, fəlsəfi-psixoloji konsepsiyası böyük filosofun təlimi qədər əhatəli, qollu-budaqlı deyil, Prustun yaradıcılığı Berqsonun yalnız zamanla bağlı müddəalarını, onu da qismən ifadə eləyir. Diqqət yetirsək, bunun gerçək olduğunu xüsusi idrak cihazlarıyla silahlanmamış gözlə də görə bilərik.

Prust Berqsonun zaman konsepsiyasından praktiki şəkildə yararlansa da, onun bütün ideyalarını bölüşmür. Prustun əsəri dərin psixoloji araşdırmalarla, zehni eksperimentlərlə zəngindir, ancaq Berqsondan fərqli olaraq o, qarşısına metafizik qatlara baş vurmaq məqsədi qoymayıb, insanın əbədi həyatla əlaqələrinə dair nəsə kəşf eləmək öhdəliyi götürməyib, onun belə bir həyatın varlığına inandığı da hiss olunmur, əbədiyyətə inam onun naturasına xas cəhət deyil. Özü də boynuna alırdı ki, təxəyyülünün qanadları uçmaq üçün yaramır. Onun fikrincə, təbiətə, həyata nəsə əlavə eləməyə, olmayan şeylər uydurmağa, romantik illüziyalara qapılmağa heç bir ehtiyac yoxdur, təbiət, həyat elə göründüyü şəkildə də maraqlıdır. Tale hər bir insana yetərincə dolğun, mənalı, sirli ömür bəxş eləyib, sənətkarın vəzifəsi təbiətlə insan arasında tərcüman olmaq, həyatın dərinliyində yatan lal həqiqətləri üzə çıxarıb onların dediklərini adam dilinə çevirməkdir. Prust diriliyi metafizik aləmdə axtarmır, yaşadığı anlara yalnız sənətin, yazının gücünə dirilik qazandırmağa çalışır. İncəsənət anı da, insanı da axan zamanın içindən qarmağa keçirib saxlamağın, ölümsüzləşdirməyin yeganə mümkün vasitəsidir. Prustun Berqson sayağı filosof, peyğəmbər olmağa həvəsi (yalnız həvəsimi?) yoxdur, onun məsləki, təyinatı psixoloq olmaq, məqamı şair məqamıdır.

***

Yazıya gənclik təəssüratımdan başladımsa, birini də deyim: aşağıyuxarı iyirmi yaşlarımda məni nəsr yaradıcılığıyla bağlı ən çox düşündürən, xəyalıyla yatıb-durduğum məsələlərdən biri lirik janrla epik janrın ideal sintezinə nail olmaq, poetik nəsr etalonu yaratmaq idi (əslində, bu ənənənin bünövrəsi dastanlarda çoxdan qoyulub). Ruhsuz, cılız, quru nasiranə sintaktik vahidlər zövqümü oxşamırdı, sulu, şirəli, sanballı, dağ seli kimi guruldayan mürəkkəb cümlələr gözümə-qulağıma xoş gəlirdi. Onda hələ Prustun, Coysun üslubuna, cümləsinə yalnız qiyabi bələdçiliyim vardı, Tomas Mannı, Folkneri dərindən tanımırdım. Ona görə də yenicə "kəşf elədiyim" velosipedimlə onların keçdiyi yolda şütüməyə can atırdım, nəsrin artıq çoxdan üstündən adladığı mərhələni genetik ədəbi yaddaşımla yenidən bir yenilik kimi yaratmağı qafilcəsinə, sadəlövhcəsinə arzulayırdım. Az sonra Prustu tanıyanda sevindim ki, nə yaxşı vaxtında o işləri görüb, bizi əzab-əziyyətdən, gecikmiş novatorluq çabalarından qurtarıb. Həqiqətən o işin altına girmək böyük əzab-işgəncədir. Prustun "mənim əvəzimə" həyata keçirdiyi sintez ideal olmasa da, hər halda mükəmməldir.

Modernistlərin ilk nəsli dünya ədəbiyyatına yeni böyük təkan verdi, nəsrin poetikləşməsi, artıq elementlərdən arınıb budanması, hekayə, roman üslubunun təkmilləşdirilməsi, nəsrin damarlarına təkcə poeziya yox, traktat hormonlarının da yeridilməsi yolunda ciddi addımlar atıb cəsarətli işlər gördü. Sonra gələnlər bu ənənələri daha da irəlilətdilər, forma-üslub axtarışlarını bir az da inkişaf etdirdilər, modernist qəlibləri yeni məzmunla doldurdular. Proses, çox güman, hələ də başa çatmayıb...

Tomas Mann Prustun silsiləsini "subyektiv epopeya" adlandırmışdı. Gerçəkdən çox dəqiq təsbitdir. Yeddi cildlik romanda baş verən hadisələr bir yığcam povestə sığacaq qədər azdır. Burada hər şey təhkiyəçi baş qəhrəmanın dilindən danışılır, həyata, insanlara, konkret personajlara, saysız-hesabsız detallara onun gözündən, pəncərəsindən baxılır. O qəhrəmanın soyadını bilməsək də, adı Marseldir. Əlbəttə, müəllifin ona öz adını verməsi təsadüf sayıla bilməz. Əsər avtobioqrafik elementlərlə ağzınacan doludur, bununla belə, qəhrəmanı müəlliflə eyniləşdirmək olmaz, yəni "İtkin zamanın sorağında" avtobioqrafik romanlar silsiləsi deyil. Müəllifin müşahidə kamerası qəhrəmanın beyninə yerləşdirilsə də, hamıya, hər şeyə onun gözüylə baxılsa da, müəllifi əvəz eləmək ona etibar olunsa da, yazıçı öz qəhrəmanına heç də bütün həyatını, ömrünün bütün sirlərini, nə də bütün səlahiyyətini təhvil verməyib. Avtobioqrafik romanda müəlliflə baş personaj arasından sərhəd götürülür, Prustun romanı isə avtobioqrafik detallarla zəngin olsa da, məhz bədii əsərdir, müəllif hətta həyatıyla bağlı bəzi faktları, situasiyaları, eləcə də onlara bağlı yaşantıları burada fərqli şəkildə, sublimativ qaydada, bir az da açıq desəm, obrazların cinsini dəyişməklə təqdim eləyib. Hər halda onun bioqrafları belə deyirlər. Bir çox halda yer, adam adları da şərtidir.

***

"İtkin zamanın sorağında" romanını əvvəldən axıracan oxuyub başa vurmaq oxucudan həm böyük təmkin, hünər, həm də incə zövq istəyir. Əsər baş qəhrəmanın uşaqlıq xatirələriylə başlayıb, yeniyetməlik, gənclik sərgüzəştləriylə davam eləyib (əlbəttə, bu "sərgüzəşt" dediklərimiz əsasən onun içində, yaddaşında baş verən assosiativ epizodlardır), itkilərdən, xəstəlikdən üzülmüş, əzablardan yorulmuş yetkin, düşkün çağlarında sona çatır. Burada bir çay süfrəsinin, bir məclisin, ya balın mənzərəsi, bir otağın içindəki əşyaların düzülüşü, çayda isladılmış bir peçenyenin damaqdakı dadından diksinib oyanan duyğuların tarixçəsi on səhifələrlə, bəzən hətta yüz səhifədən artıq təsvir oluna bilər. Maraqlı burasıdır ki, roman oxunduqca həm də oxucunun gözü qarşısında, onun iştirakıyla yazılır, sanki bu oxunan da roman deyil, qəhrəmanın, ya müəllifin yazmaq istədiyi əsər haqqında danışdıqlarıdır. Baş qəhrəman Marsel bu romanı yazmağı qərara alanda müəllif Marsel həmin romanı bitirir, çevrə qapanır. Bu, avtobioqrafik əsərə xas texnikadır. Əslində, ondan sonra romanı yenidən, lap başdan bir də oxumalısan, müəllif Marselin romanını oxuyub bitirəndən sonra təhkiyəçi Marselin yazmağa başladığı romanı onunla sinxron şəkildə oxumağa başlamalısan, bu səfər müəllifin yox, təhkiyəçinin söylədiklərini dinləməlisən. Düzgün oxunuş məhz belə olmalıdır.

Yenə deyirəm, biz romanı oxuduqca həm personaj Marselin xatirələrinin detallarını, duyğularının yerli-yataqlı təsvirlərini, bu romanı yazana qədər yaşadığı ömrün təfərrüatını izləyirik, həm də müəllif Marselin yazı prosesinə şahidlik eləyirik. Romanın yazılması romanda baş verənlərin yaşanmasından sonrakı dövrə düşür, ancaq müəllif personajına romanda yazılanları yenidən yaşatmaqla keçmişi indiyə çağırır, eyni zamanda gələcəyi də həmin məqamda yaşadılayır, bununla da keçmişlə gələcək indiki zamanda, yəni yaradıcılıq prosesində qovuşub birləşir. Romanın yazılmağa başlanmasından başa çatmasına (müəllifin ölümünə) qədərki onillik dövr əsərin qələmə alınmasından əvvəlki qırxillik dövrənin təəssüratlarıyla doldurulur, o zamana təzə, yad gələcəyin müdaxiləsinə yol verilmir, kitabın qapıları müəllifin öz qapısı kimi yeni xatirələrin, yeni duyğuların, yaşantıların üzünə bağlanır, qarşıda açılan gələcək başdan-başa keçmişin xalçasıyla örtülüb görünməz olur.

Marsel Prust belə bir ədəbi texnikayla özünə əbədiyyət yaradır. O, qəhrəmanı Marselin subyektiv zamanını Anri Berqsonun "müddət"i kimi abstraksiya səviyyəsinə qaldırıb ona fövqəltəbii çalar yaxmır, metafizik rəng vermir, tam tərsinə, Berqsonun əbədi zamanını mücərrədlik taxtından endirib ona maddi aləmdə, fani dünyada dirilik vəsiqəsi verir. Prusta görə, kainatda daimi heç nə yoxdur, həyat da gördüyümüzdən artıq bir nəsnə deyil. Yalnız incəsənət nəyəsə, kiməsə yaşarlıq qazandıra bilər. Qalıcılıq sözə, sənətə xasdır, qalan hər şey ölücüdür. Berqsonun axtardığı diriliyi, əbədiyyəti də həyat selinə dalmaqla, uzandıqca uzanan zamanın ətəyindən sallaşmaqla yox, bir romanın səhifələrinə köçürməklə qazanmaq olar. Silsilənin sonuncu romanı belə də adlanır: "Qazanılmış zaman", yaxud da: "Əldə olunmuş zaman". Bəlkə belə daha dəqiqdir: "Geri alınmış zaman".



F.Uğurlu

**davamı növbəti sayımızda**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




# Böyük Qayıdışın izi ilə!



## Xocalı və Ağdərəyə qayıdanların sayı artır

2023-cu ilin 20 sentyabrı tariximizin səhifələrinə Xankəndi, Xocalı, Xocavənd, Əsgəran, Ağdərə kimi əzəli torpaqlarımızın ermənilərdən azad edilməsi kimi yazıldı. Həmin tarix əsrlər sonra da böyük Zəfərlə yad olunacaq, qürur tariximiz kimi xatırlanacaq. 2023-cü il həm də Ağdərənin qaytarılması, ləğv edilmiş, lakin ürəklərdə, yaddaşlarda yaşayan bir rayonun yenidən soydaşlarımıza hədiyyə edildiyi il kimi də yaddaşlara həkk olundu.

İşğaldan azad olunmuş torpaqlarımızın əsl sahiblərinin köçü bir müddətdir ki davam edir. Demək olar ki, hər gün yeni ünvanlara Böyük Qayıdışın şahidi oluruq. Bununla da vaxtilə soyqırımı və dağıntılara məruz qoyulan ərazilərimizin azad olunmasından dərhal sonra bərpasına başlanılması mənəvi baxımından çox böyük əhəmiyyət daşıyır.

### 2073 nəfərin yurd həsrəti bitib

Bildirilib ki, bugünədək Xocalı şəhərinə 341 nəfərdən ibarət 85 ailə, Xocalının Ballıca kəndinə isə 172 ailə - yəni 811 nəfər köç edib. Ümumilikdə, Xocalıda 1152 nəfər məskunlaşıb.

Qeyd edək ki, təkcə Xocalıya deyil, Ağdərəyə də köç davam edir. Ağdərə rayonunun Həsənriz kəndinə 70 ailə - 238 nəfər, Suqovuşan kəndinə 180 ailə - 592 nəfər, Talış kəndinə isə 91 nəfərdən ibarət 20 ailə köçürülüb. Ümumilikdə hazırda Ağdərənin kəndlərində 921 nəfər məskunlaşıb. Bu proses isə mərhələli şəkildə davam edir. Geri qayıdan əhalinin dayanıqlı məşğulluğunun və sosial müdafiəsinin təmin edilməsi isə əsas istiqamətlərdən biri olaraq qalır.

Hazırda "Böyük Qayıdış" layihəsi uğurla həyata keçirilir. "Böyük Qayıdış" proqramının ikinci mərhələsi isə 3 fazadan ibarət olmaqla, 2026-2040-cı illəri əhatə edəcək və proses 2040-cı ilə qədər yekunlaşacaq.

1992-ci ildə Azərbaycan siyasi qeyri-sabitliyin zirvəsini yaşayırdı. Xocalı soyqırımının müəllifləri və icraçılarına görə mülki şəxslərin kütləvi qırğını daxili siyasi vəziyyəti daha da gərginləşdirməli idi. Bundan əlavə, mülki hava limanının yerləşdiyi Xocalının işğalı, Ermənistana strateji üstünlük və Qarabağın qalan şəhərlərini işğal etmək üçün geniş imkanlar verirdi.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə güclü artilleriya atəşlərindən sonra Ermənistan silahlı qüvvələri və yarım-hərbi birləşmələr, keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə şəhəri işğal etmək üçün hərəkətə keçdilər. Hücum başladıqdan sonra şəhərdə qalan 2500-ə yaxın əhali azərbaycanlıların nəzarətində olan ən yaxın məkana çatmaq məqsədilə şəhəri tərk etməyə cəhd etdilər. Lakin onların ümidləri boşa çıxdı. Şəhəri tərk edən əhali pusquya salındı. Naxçıvanlı və Pircamal kəndləri yaxınlığında erməni hərbi postları tərəfindən ya atəşə tutularaq qətlə yetirildi, ya da əsir götürüldü.

Əsasən qadın və uşaqlardan ibarət əhalinin qalan hissəsi həyatlarını xilas etmək üçün dağlardan keçməyə çalışdılar, lakin şaxtalı havada donvurma nəticəsində həlak oldular. Yalnız çox az sayda əhali sağ-salamat Ağdam şəhərinə çata bildi.

## Xocalı və Ağdərə üçün yeni həyat

2026-cı ilin sonunadək "Böyük Qayıdış" proqramının I mərhələsinin tamamlanacağı və bu mərhələdə 140 min keçmiş məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzura qayıdacağı planlaşdırılır. Bu barədə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb.

### İşğala qədər burada 14 mindən çox azərbaycanlı yaşayırdı

Ağdərə rayonu 10 sentyabr 1939-cu ilədək Cerabert, 1991-ci ilə qədər Mardakert, həmin tarixdən ləğv olunana kimi isə Ağdərə adlanıb. İnzibati mərkəzi Ağdərə şəhəri olub. 1992-ci ilin oktyabrında Azərbaycan hökumətinin qərarı ilə Ağdərə rayonunu ləğv edilərək, ərazisi Qarabağ ətrafındakı 3 rayon - Tərtər, Ağdam və Kəlbəcər rayonları arasında bölünmüşdü.

Erməni işğalına qədər Ağdərənin 14 kəndində 14 mindən çox azərbaycanlı yaşayıb. Ağdərə rayonu bir çox ərazilərimiz kimi Birinci Qarabağ müharibəsinin başlanğıcında Erməni silahlı qüvvələrinin nəzarəti altına keçir. Nəhayət, 2023-cü il sentyabrın 20-də Ordumuzun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Ağdərə separatçılardan təmizləndi. Prezident İlham Əliyev oktyabrın 15-də Ağdərədə Dövlət Bayrağımızı ucaltdı. Bununla da ağdərəli soydaşlarımızın yurd həsrəti sona çatdı.

***Sahib***


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti üzrə hazırlanmışdır**


# "Qulaq dostumuz"...

## 7 may Radionun ad günüdür

Radio hələ də məşhur yayım orqanı vasitəsi olaraq yerini qorumaqdadır. Bu kütləvi informasiya vasitəsi bir əsrdən artıqdır ki, insanların məişətinə daxil olmaqla bərabər, onların həyat tərzində mühüm rol oynayır. Eyni zamanda, radio bir rabitə sistemi kimi fövqəladə hallarda geniş və əvəzsiz imkanlara malikdir. Bundan başqa, radio həm də dilimizin təbliğat tribunasıdır. Elektron medialar arasında ən köhnəsi olan radionun - "qulaq dostumuzun" yaranmasının uzun bir tarixi var.

Radio təkcə texniki vasitə kimi deyil, həmçinin demokratik müzakirənin formalaşması və möhkəmlənməsinin baş verdiyi informasiya məkanıdır. 7 may dünya elm və texnika tarixinə Radio Günü kimi daxil olub. Bu gündə bütün radio dinləyiciləri, audiovizual mütəxəssislər və yayımçılar təkcə radionun xüsusiyyətlərinə hörmətlə yanaşmağa deyil, həm də onun sülhü təşviq etmək üçün unikal alətə çevrilməsinə töhfə verməyə dəvət edilir.

### Radio necə yaranıb?

Radionun meydana çıxması üçün səsin yazılıb-yenidən canlandırılması, bundan daha önəmlisi isə fəzada mövcud olan elektromaqnit dalğalarının tapılıb bəşəriyyətin ixtiyarına verilməsi zəruri idi. Səsyazmanın tarixi 13-cü əsrdə - Almaniyada qraf "Böyük Albert"lə başlasa da, sonralar Fransa (J.Dyuqamel və L.Skot), Böyük Britaniya (T.Yunq) və Rusiyada (A.Krotsenşteyn) davam etdirilsə də proses 19-cu əsrdə ABŞ-da sona çatdı. Məşhur ixtiraçı T. Edison davamlı sınaqlardan sonra 1877-ci ilin dekabrında düzəltdiyi fonoqrafın qarşısında həyəcanla "Meri və onun körpə quzusu" adlı uşaq şeirini söyləyir. Bir dəqiqədən sonra ixtiraçının köməkçisi C.Krues heyrət içində aparatın həmin şeiri anlaşılmaz şəkildə təkrar etdiyini eşidir. Beləliklə, səsin dəqiq yazılması və onun yenidən eşidilməsi kəşf olunur, lakin bu, radionun kəşfi demək deyildi. Bundan əvvəl teleqrafın (1837), Morze əlifbasının (1843), telefonun (1876) və səsin telefonla ötürülməsinin (1880) kəşfi də hələ radionun ixtirasını yaxınlaşdırmırdı. Bunun üçün fəzadakı elektromaqnit dalğaların kəşf olunmalı, bu dalğaların axını insanın iradə və istəyinə tabe edilməli, məlumat naqilsiz, yəni elektromaqnit dalğaları ilə uzağa ötürmək üsulu meydana çıxmalı idi.

### Markoni, yoxsa Popov?

Radionun kəşfi 1894-cü ildə italiyalı mühəndis, radiotexnik Qulyelmo Markoniyə nəsib olur. Uzaq məsafəyə hava dalğaları ilə simsiz xəbər göndərmək marağını təmin etmək üçün Boloniyadakı evinin damında inadla təcrübələr aparan ixtiraçı nəhayət, öz istəyinə çatır.



Markoni hələ məktəblikən beynindən çoxlu ixtiralar etmək istəyi keçirdi. 20 yaşında olarkən elektromaqnit dalğaları haqqında oxuduğu bir yazı onu çox cəlb etdiyindən gənc mühəndis eksperimentlərə başladı. O, xəyali olanları praktikada tətbiq etmək qərarına gəldi. Markoninin valideynləri övladlarının çox xərc aparan eksperimentləri üçün pullarını əsirgəmədilər. Maraq, bilik və praktik bacarıq 20 yaşlı bu gənci bütün Avropada məşhurlaşdırdı. İtaliyada yaşayan Markoni 21 yaşında İngiltərəyə köçdü və orada naqilsiz rabitə şirkəti yaratdı.

Q.Markoni ilə təxminən eyni vaxtda, 1895-ci ildə rus mühəndisi Aleksandr Popov da elektromaqnit dalğalarını kəşf etmiş və onun tapıntısı dərhal təcrübədə sınaqdan keçirilmişdi. Elektromaqnit dalğaların mövcudluğunu göstərməyin daha həssas və etibarlı üsulunu tapan A.Popov bu dalğaları bilavasitə qeydə alan "Koherer" adlı ölçü cihazı da düzəltmişdi. 1900-cü ilin sərt qışında Finlandiyada - Lavensaari gölündə qəzaya uğramış balıqçıların xilas edilməsində A.Popovun təklif etdiyi bu cihaz radioteleqraf kimi mühüm rol oynadı və bundan sonra rus mühəndisinin ixtirasına diqqət xeyli artdı. Son dövrlərdə, yeni dünya elmi ilə təmaslar artdıqca, o cümlədən radionun tarixi ilə bağlı dəqiq bilgilər çoxaldıqca Rusiya alimləri yanlış olaraq "radionu kim kəşf edib? Markoni, yoxsa Popov?" dilemmasını ortaya atmağa çalışırlar. Əlbəttə, radionun inkişafında A.Popovun xidmətləri danılmazdır. Amma dünya radionun banisi kimi Markonini tanıyır. Amma yaxşıdır ki, bu sahədə A.Popovun ixtiraları da danılmır. Məsələn, son dövrün bir çox sorğu kitablarının səhifələrində Markoni və Papov "barışdırılır".

### Azərbaycanda radio nə vaxt yaranıb?

Azərbaycan radiosu 1926-cı il noyabrın 6-da yaradılıb. Həmin gün ölkə paytaxtının küçələri və meydanlarında qurulmuş reproduktorlardan ilk dəfə "Danışır Bakı!" ifadəsi ətrafa yayıldı. Radioya təkcə Bakıda deyil, ətraf yaşayış məntəqələrində də maneəsiz qulaq asa bilirdilər. O zaman həmin hadisə Azərbaycan xalqının siyasi və mədəni həyatında böyük bir yenilik idi. İlk dövrdə Bakı studiyası indiki İstiqlaliyyət küçəsi, 10 ünvanında yerləşən Azərbaycan Milli Elmlər Akademiyasının əsas binasının (keçmiş İsmailiyyə) üçüncü mərtəbəsində cəmi 3 otaqda fəaliyyət göstərirdi.

***Yeganə BAYRAMOVA***

## Azercell-dən "Bahar" kampaniyası

Lider mobil operatordan Xiaomi və OPPO cihazlarını əldə edən müştərilərə "SuperSən" tariflərinə 50% endirim!

Azercell xüsusi "Bahar" kampaniyasına start verir. Belə ki, "Azercell Exclusive" və rəsmi diler mağazalarından Xiaomi və OPPO markalı seçilmiş smartfon modelləri əldə edən abunəçilər "SuperSən 6GB", "SuperSən 10GB" və "SuperSən 20GB" tariflərinə 6 ay müddətinə 50% endirimlə qoşula biləcəklər.

31.05.2025 tarixinədək qüvvədə olacaq kampaniya qiyməti 299 AZN-dən başlayan Xiaomi və OPPO cihazlarına şamil olunacaq.

Ətraflı məlumat üçün: https://www.azercell.com/az/




## "Bakcell" "Ən uğurlu rebrendinq layihəsi" mükafatı ilə təltif olundu

İnnovasiya və sürət lideri "Bakcell" "Baku Flames - Beynəlxalq Yaradıcılıq və Effektivlik Festivalı" çərçivəsində "Ən uğurlu rebrendinq layihəsi" üzrə mükafata layiq görülüb. Bu nominasiyada brendin strateji mövqeyi ilə vizual təqdimatı arasında ardıcıl və güclü əlaqə qurmaq bacarığı qiymətləndirilir. "Bakcell" yeni brend kimliyi vasitəsilə innovativ yanaşmasını və inkişaf strategiyasını uğurla nümayiş etdirib.

"Bakcell"in 2024-cü ildə həyata keçirdiyi rebrendinq zamanı aparılan strateji və vizual yeniliklər bu mükafata layiq görülməsində mühüm rol oynayıb. Xatırladaq ki, şirkətin yeni loqosu 5 dinamik fiqurun ulduz formasında birləşməsi ilə "Bakcell"in insanları, məkanları və dəyərləri birləşdirən fəlsəfəsini, innovasiya və rəqəmsal gələcəyə doğru sürətlə irəliləyişini simvolizə edir.

Qeyd edək ki, 2-3 may tarixlərində Azərbaycanda keçirilən "Baku Flames - Beynəlxalq Yaradıcılıq və Effektivlik Festivalı" yaradıcı sənayenin inkişafına dəstək məqsədi daşıyaraq, yerli və xarici mütəxəssisləri, marketinq rəhbərlərini bir araya gətirib.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

"Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.




## Azercell və ADA Universiteti Fondunun tərəfdaşlığı çərçivəsində "TechFront" akademiya-sənaye görüşü keçirildi

Azercell və ADA Universiteti Fondunun (ADAF) tərəfdaşlığı ilə "TechFront: Texnologiyanın Sərhədlərini Kəşf Et" mövzusunda Akademiya-Sənaye görüşü baş tutdu. Tədbir çərçivəsində süni intellekt, proqram mühəndisliyi və kibertəhlükəsizlik sahələrindəki son tendensiyalar gündəmə gətirildi. Eyni zamanda, tədbir gənc startap və texnologiya mütəxəssislərin bilik mübadiləsi üçün effektiv platforma rolunu oynadı.

"Risklər və təhlükəsizlik tədbirləri: Gələcəyi necə qoruyaq?" mövzusuna həsr olunmuş paneldə Azercell-in Məlumat Təhlükəsizliyi və İnsidentlərin İdarə Edilməsi bölməsinin rəhbəri Elnur Quluzadə və Təhlükəsizlik Əməliyyatları Mərkəzinin rəhbəri Samir Fətəliyev forum iştirakçılarını rəqəmsal təhlükəsizlik mədəniyyəti, informasiya sistemlərinin davamlılığı və qabaqlayıcı təhlükəsizlik tədbirləri barədə maarifləndirdilər.

"Gələcəyə baxış: Bizi nə gözləyir?" mövzusunda keçirilən sessiyalarda isə Azercell-in Data Modelləşdirilməsi üzrə aparıcı mütəxəssisləri Süleyman Süleymanzadə və Elxan Əlizadə süni intellektin sosial və iqtisadi təsirləri, etik aspektləri və tətbiq sahələri ilə bağlı fikir və təcrübələrini bölüşdülər.

Tədbirdə həmçinin ADA və Corc Vaşinqton Universitetlərinin müəllimləri mövzu ilə bağlı çıxış etdilər. ADA Universitetinin tələbələrindən ibarət startap komandaları isə innovativ layihələrini təqdim etdilər. Forumun sonunda münsiflər heyətinin qərarı ilə "Ən Yaxşı Startap" və "Ən Yaxşı Sual" nominasiyaları üzrə fərqlənən iştirakçılar mükafatlandırıldı.




Təsisçi: Yeni Azərbaycan Partiyası
Baş redaktor: Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar: 598-37-76, 498-82-21, 498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4919
Sifariş: 948
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi: Yeganə Bayramova